5 iyun 2024 №41 (2106)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## İqlim dəyişikliyi hər bir ölkə üçün çağırışdır

“Baş verənlərə görə bir-birimizi günahlandırmağı dayandırmalı, səylərimizi səfərbər etməliyik”




Dəfələrlə dediyim kimi, neft və qaz ehtiyatlarına sahib olduğumuza görə bizi heç kəs günahlandıra bilməz. Bunu bizə Allah yetirib. Bizim işimizə bu ehtiyatların mövcudluğu əsasında deyil, onlardan hansı şəkildə istifadə etdiyimizə görə qiymət verilməlidir. Biz bu sərvəti müxtəlif vasitələrlə cəmiyyətə yönəltmişik, biz inklüziv cəmiyyət qura bilmişik, biz yoxsulluğu 50 faizdən 5 faizə endirə bilmişik.

Prezident İlham Əliyev bu sözləri iyunun 4-də Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz – “Caspian Oil&Gas” və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji – “Caspian Power” sərgilərinin açılışında çıxışı zamanı deyib.

Dövlət başçısı vurğulayıb ki, bizə qiymət verilən zaman bütün amillər nəzərə alınmalıdır. Bununla yanaşı, COP-a ev sahibliyi etmək kimi məsuliyyətli vəzifəni üzərimizə götürərkən biz bunun həm üstünlüklərini, həm də müəyyən çətinliklərini tam şəkildə dərk edirik.

Prezident qeyd edib ki, Azərbaycanda iqlim dəyişikliyi Xəzər dənizinin sahilinə nəzər salarkən görünür. İldən-ilə biz dənizin geri çəkildiyinin şahidi oluruq və bunun səbəbi iqlim dəyişikliyi və insanların qeyri-rasional fəaliyyətidir. Çünki Xəzər dənizini qidalandıran mənbə çaylar sərhədlərimizin hüdudları kənarındadır. Heç bir ciddi tədbirlər görülməzsə, biz böyük bir fəlakətlə üzləşəcəyik. Biz dənizi əlavə su həcmləri ilə təmin etmək üçün yeni bəndlər və su toplanması üçün anbarlar inşa edirik. Lakin Xəzər dənizini qidalandıran əsas mənbələr Azərbaycanda deyil.

“İqlim dəyişikliyi hər bir ölkə üçün çağırışdır” deyən İlham Əliyev diqqətə çatdırıb ki, biz proaktiv addımlar atdıq və hazırda tərəfdaşlarımızla birgə çalışırıq. Biz BƏƏ (ötən il COP28-in ev sahibi – red.) və növbəti COP-a ev sahibliyi edəcək Braziliya ilə birlikdə “üçlük” təsis etmişik. Qoşulmama Hərəkatının keçmiş sədri qismində biz 120 ölkə ilə birlikdə bu təsisat və Avropa İttifaqı arasında körpülərin qurulmasına çalışırıq. Avropa İttifaqına 10 üzv dövlət ilə Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında bəyannamə imzalanıb. Biz hazırda inkişafda olan kiçik ada dövlətləri ilə fəal işləyirik. Onların dəstəklənməsi məqsədilə xüsusi fondun yaradılmasını planlaşdırırıq.

“Beləliklə, biz maksimal dərəcədə məsuliyyət nümayiş etdirməyə və eyni zamanda, beynəlxalq ictimaiyyətin müxtəlif komponentləri arasında körpülər qurmağa çalışırıq. Hesab edirəm ki, COP29 çərçivəsində maliyyə məsələləri ilə yanaşı, əldə edə biləcəyimiz ən böyük nəticə qarşılıqlı ittihamlara son qoyulması olacaqdır. Biz baş verənlərə görə bir-birimizi günahlandırmağı dayandırmalı, səylərimizi səfərbər etməli, iddialardan əl çəkməli və diqqətimizi övladlarımız və nəvələrimizin yaşamağa davam edəcəyi bu planetdəki həyatla bağlı gündəliyimizə yönəltməliyik”, – deyə İlham Əliyev bildirib.

***

Azərbaycan Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd əl-Cabir tədbir çərçivəsində Neftçala, Biləsuvar Günəş elektrik stansiyalarının və Abşeron-Qaradağ Külək Elektrik Stansiyasının təməlini qoyublar.

## Kitablarımız Varşavada beynəlxalq sərgidə



Azərbaycanın Polşadakı Səfirliyi Polşa Tatarları İttifaqı ilə birgə Varşava Beynəlxalq Kitab Sərgisində (Warsaw International Book Fair – 2024) iştirak edib.

İtaliyanın fəxri qonaq qismində qatıldığı sərginin builki gündəliyi zəngin olub. Varşava Mədəniyyət və Elm Sarayında keçirilən sərgi çərçivəsində tanınmış müəlliflərin imza günləri, oxu saatları, ədəbi müzakirələr və konsert proqramları olmaqla 4 gün (23–26 may) ərzində çoxsaylı tədbirlər təşkil edilib.

Azərbaycanın Polşadakı Səfirliyi tərəfindən təqdim edilən kitablar da nümayiş olunub. Onların arasında “Kitabi-Dədə Qorqud”, “Koroğlu” dastanları, dahi Azərbaycan şairi Füzulinin qəzəlləri, Azərbaycan aforizmləri, digər görkəmli şair və yazıçılarımızın polyak dilinə tərcümə edilmiş əsərləri yer alıb.

Varşava Beynəlxalq Kitab Sərgisi Avropada ənənəvi olaraq keçirilən nüfuzlu kitab sərgilərindən hesab olunur. Azərbaycan səfirliyi ötən il sərgidə Türk Mədəniyyəti və İrsi Fondu ilə birgə iştirak edib.

## “Rəqəmsal Yaradıcı Həftəsonu” nə ilə yadda qaldı?




31 may – 3 iyun tarixlərində Bakıda və Şuşada “Rəqəmsal Yaradıcı Həftəsonu” (Digital Creative Weekend) layihəsi həyata keçirilib.

Layihə çərçivəsində iyunun 1-də Bakı Kristal Zalında (“Baku Crystal Hall”) Mədəniyyət Nazirliyinin dəstəyi ilə genişmiqyaslı oyun festivalı – “Gamesummit – 2024”ün açılış mərasimi olub.

Mədəniyyət nazirinin müavini Səadət Yusifova çıxış edərək iştirakçıları salamlayıb. Diqqətə çatdırıb ki, Azərbaycan rəngarəng incəsənəti və yenilikçi ruhu ilə tanınır: “Muğam musiqisinin qədim melodiyalarından Bakı şəhərinin heyranedici memarlığına qədər Azərbaycanın mədəni mozaikası həm qədim, həm də müxtəlifdir. Ölkəmizin inkişafında yaradıcılıq və innovasiyanın əhəmiyyətli rolu var. Möhtərəm Prezidentimiz İlham Əliyev bu barədə demişdir: “Azərbaycanın gələcəyi zəngin mədəni irsimizi qoruyaraq yenilik etmək və qlobal texnoloji landşafta inteqrasiya etmək bacarığındadır”.

Bu konsepsiya “Gamesummit”in mahiyyətini mükəmməl şəkildə əks etdirir, burada ənənə və yenilik bir araya gəlir. Festival rəqəmsal incəsənət və əyləncəyə həvəsli olanlar üçün yaradıcılıq, innovasiya və texnologiyanın sonsuz imkanlarının təntənəsidir. İstedadların yetişdirilməsi və rəqəmsal sənətlərin təşviqi üçün təşəbbüslər dövlətimizin mədəniyyət siyasətində xüsusi yer tutur. Bütün bu fəaliyyətlər 2022–2026-cı illər üçün Sosial-İqtisadi İnkişaf Strategiyasına uyğun olaraq həyata keçirilir ki, bu da yaradıcı sənayelərin inkişafını təşviq edir və bu sahədə yeni yaradıcı bizneslərin yaranmasına dəstək olur”.






davamı səh. 3-də

## Vokal ulduzları Bakıda doğulur...



İyunun 3-də Mədəniyyət Nazirliyi və Bülbül Beynəlxalq Fondu tərəfindən keçirilən Vokalçıların Bülbül adına IX Beynəlxalq Müsabiqəsi öz işinə başladı.

Həmin gün hava da tam fərqli idi. Soyuq havası, güclü küləyi, qəfil yağışı, dağlarda hətta qarı ilə yadda qalacaq bahar da yerini qızmar yaya verməkdə tələsmişdi. Bəlkə də hava bu temperatur şıltaqlığı ilə 25-dən çox ölkədən təşrif buyuran, Bakıdan qalib kimi ayrılmaq istəyi ilə paytaxtımıza ayaq basan gənc vokalçılara burada onlara nə qədər isti münasibətin göstəriləcəyini nümayiş etdirmək istəyirdi. Səs, oxumaq məsələsi belədir ki, bu işdə soyuğun zərəri olar ki, istidən səsə xətər toxunmaz...

Müsabiqədə 140 nəfərdən çox 18-36 yaş arasında vokalçı qələbə uğrunda yarışır.

İştirakçı coğrafiyası genişdir. Azərbaycanla yanaşı, Türkiyə, Rusiya, Qazaxıstan, Qırğızıstan, Cənubi Koreya, Makedoniya və digər ölkələrdən vokalçılar bir həftə ərzində Bülbül adına sənət şöləninin mükafatları uğrunda öz məharətlərini göstərəcəklər.

Açılış mərasimindən əvvəl ənənəyə sadiq qalaraq müsabiqənin təşkilat komitəsinin, münsiflər heyətinin üzvləri, Mədəniyyət Nazirliyinin təmsilçiləri və müsabiqə iştirakçıları böyük sənətkar, Azərbaycanın və SSRİ-nin Xalq artisti Bülbülün (1897–1961) abidəsinin önündə görüşdülər.

davamı səh. 3-də

## Almatıda postsovet ölkələrinin Gənclər Teatr Forumu

### Ölkəmiz də təmsil olunur

3–9 iyun tarixlərində Qazaxıstanın Almatı şəhərində postsovet ölkələrinin 5-ci Gənclər Teatr Forumu keçirilir.

Mədəniyyət Nazirliyinin dəstəyi, Azərbaycan Teatr Xadimləri İttifaqının təşəbbüsü və iştirakı ilə beynəlxalq tədbirdə ölkəmizin nümayəndə heyəti də iştirak edir.

Forumda Qazaxıstan, Azərbaycan, Rusiya, Belarus, Qırğızıstan, Moldova, Özbəkistan və Tacikistandan yaşı 35-ə qədər olan 200-dən çox rejissor, dramaturq, aktyor, səhnə rəssamı, teatrşünas bir araya gəlib. Azərbaycanı gənclərdən Cavid Zeynallı, Dağlar Yusif, Abdulla Elşadlı, Ümüd Abbaszadə, Sahib Əhmədov, Elmira Üzeyirova və Fərəh Quliyeva təmsil edir.




Forumun maarifləndirici proqramında teatr rəssamları, dramaturqlar, tənqidçilər də iştirak edəcək, ustad dərsləri və sərgi təşkil olunacaq.

davamı səh. 2-də

## “Məktəblilər üçün teatr pedaqogikası”

Elm və Təhsil Nazirliyi, eləcə də Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə iyun və oktyabr aylarında “Məktəblilər üçün teatr pedaqogikası” layihəsi həyata keçiriləcək.

Layihənin məqsədi uşaq və gənclərdə estetik zövq formalaşdırmaq, onların incəsənətə marağını artırmaq, həmçinin asudə vaxtlarını səmərəli təşkil etməkdir.

Layihə çərçivəsində 11–12 iyun tarixlərində Şəki və Lənkəran şəhərlərindən 2500-ə yaxın məktəbli Lənkəran Dövlət Dram Teatrında “Haqqın 44 günü” və Şəki Dövlət Dram Teatrında “Çələbi xan” tamaşalarına baxacaqlar.

Bununla yanaşı, layihə çərçivəsində növbəti tədris ilindən 6000 nəfərdən çox region məktəblisi müxtəlif teatrlarda nümayiş olunan tamaşaları izləmək imkanı qazanacaq.

mövzuya dair bax: səh. 7

## “Axşambazarı”na 10 min $

Bildiyiniz kimi, axşam bazarı ifadəsi bazarın bağlanma vaxtına yaxın olan alış-verişə deyilir. Bundan ilhamlanaraq biz “SnackPack” mobil platformasını yaratdıq. Bu proqram gün ərzində alınmamış məhsulu endirimli qiymətlərlə satmaq üçün restoranlara axşam bazarı mobil platformasını təqdim etməklə potensial ərzaq itkisini əlavə gəlirə çevrilməkdə yardım edir.




Bunu “A-Hub Akselerasiya Proqramı”nın qalibi, “SnackPack” mobil platformasının həmtəsisçisi Ramin Tağıyev deyib.

Onun sözlərinə görə, “SnackPack” mobil platforması sayəsində alıcılar həm kafelər, həm də özləri üçün qazanclı bir vəziyyət təmin edən endirimli qiymətlərlə dadlı yeməklər tapa və əldə edə bilərlər.

“A-Hub Akselerasiya Proqramı”nın qalibi yarışda iştirakı barədə öz təəssüratlarını bölüşüb: “Biz komanda olaraq böyük finala çatmaq üçün uzun və çətin bir yoldan keçmişik. Çox şadıq ki, yaratdığımız layihə yüksək qiymətləndirilib. Birinci yeri layiq görüldüyümüz üçün çox sevincliyəm”.

## Nizaminin “Xəmsə”si türk dilinə də çevriləcək

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi irsinin tədqiqi və təbliği məqsədilə Türkiyədəki səfirliyimizin nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) “Xəmsə”yə daxil olan əsərlərin orijinaldan türk dilinə tərcüməsi və nəşri layihəsinə start verib.

Bununla bağlı Ərzurum Atatürk Universiteti Fars dili və ədəbiyyatı bölümünün müdiri professor, tərcüməçi Nimet Yıldırımla müvafiq müqavilə imzalanıb.

Müqavilə üzrə AMM-in layihəsi ilə “Xəmsə”yə daxil olan “Sirlər xəzinəsi”, “Leyli və Məcnun”, “Xosrov və Şirin” və “Yeddi gözəl” əsərləri ilk dəfə türk dilinə tərcümə edilərək nəşr olunacaq.

davamı səh. 2-də



Bütün uşaqlar xoşbəxt olsun!

səh. 4



Səhnədə yeni “Qaraca qız”

səh. 5

# COP29-a hazırlıq necə gedir?

## Təşkilat Komitəsinin növbəti iclası

Məlum olduğu kimi, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının (Conference of the Parties) 29-cu sessiyası (COP29) bu ilin noyabrında Bakıda keçiriləcək.




İyunun 3-də COP29 ilə əlaqədar Təşkilat Komitəsinin dördüncü iclası keçirilib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, sonuncu iclasdan keçən müddətdə COP29 üzrə Tədbirlər Planının icrası istiqamətində görülmüş işlər barədə məlumat verib.

Qeyd olunub ki, Prezident İlham Əliyevin müxtəlif çıxış və müsahibələrində açıqladığı vacib istiqamətlər, səsləndirdiyi tezislər Azərbaycanın COP29 üzrə fəaliyyətinin əsasını təşkil edir. Samir Nuriyev keçən aylar ərzində COP29 komandası tərəfindən müxtəlif danışıqlar qrupları ilə görüş və məsləhətləşmələrin keçirildiyini, Azərbaycanın müzakirə olunan mövzular ətrafında qlobal həmrəyliyin və konsensusun formalaşdırılması istiqamətində çalışdığını vurğulayıb. Bildirib ki, artıq ölkəmiz COP29 sədrliyinin fəal fazasına daxil olur və dövlət qurumları COP29-un uğurla keçirilməsi üçün səylərini daha da artırmalıdır.

Vətəndaş cəmiyyətinin də proseslərə töhfə verdiyini qeyd edən Samir Nuriyev bu xüsusda Afrikanın 130-dək QHT-si və İtaliyada G7 Vətəndaş Cəmiyyəti Sammitində iştirak edən bir sıra QHT-lər tərəfindən COP29-un ev sahibi kimi Azərbaycana dəstək bəyanatlarının verilməsini qeyd edib.

Ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev COP29-a hazırlıqla bağlı məlumat verib.

Xarici işlər naziri Ceyhun Bayramov müxtəlif ölkələr və danışıqlar qrupları ilə keçirilən görüş və məsləhətləşmələr, COP29 Sədrliyinin Fəaliyyət Gündəliyi, COP29-da qəbul edilməsi nəzərdə tutulan sənədlərlə bağlı son vəziyyət barədə danışıb.

Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf SOCAR-ın yaşıl gündəliyi və fəaliyyət istiqamətlərində emissiyaların azaldılması barədə çıxış edib.

Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev bu yaxınlarda istifadəyə verilmiş vahid onlayn rezervasiya platforması barədə məlumat verib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov, Milli Məclisin deputatı Könül Nurullayeva və digər çıxış edənlər fikir və mülahizələrini bölüşüblər.

İclasın sonunda COP29 Tədbirlər Planının icrası istiqamətində aidiyyəti məsələlər üzrə tapşırıqlar verilib.

# Bəstəkarlar İttifaqında uşaqların konserti

Azərbaycan Bəstəkarlar İttifaqının (ABİ) Ü.Hacıbəyli adına konsert salonunda 1 iyun – Beynəlxalq Uşaqları Müdafiə Gününə həsr olunan tədbir keçirilib. Mayın 31-də təşkil olunan tədbirdə Abşeron rayon Xırdalan şəhər onbirillik Musiqi məktəbinin şagirdləri iştirak ediblər.



ABİ-nin sədri Xalq artisti, professor Firəngiz Əlizadə giriş sözündə uşaqları bayram münasibətilə təbrik edib. İttifaqda Uşaq bölməsinin fəaliyyət göstərdiyini və bəstəkarların uşaqlara həsr olunan əsərlərinin bu bölmədə müzakirə olduğunu diqqətə çatdıran Firəngiz Əlizadə qeyd edib ki, uşaqların bədii zövqünün formalaşmasında bəstəkar və musiqişünasların üzərinə mühüm vəzifə düşür.

Sonra musiqişünas-alimlər – ABİ-nin katibi Əməkdar incəsənət xadimləri, professor Zemfira Qafarova "Uşaqların təlim-tərbiyəsində musiqinin rolu", sənətşünaslıq elmləri doktoru, professor İmruz Əfəndiyeva "Müasir zamanda uşaq musiqisinin problemləri" mövzularında çıxış ediblər.

Bədii hissədə Xırdalan şəhər onbirillik Musiqi məktəbinin şagirdləri Sevinc İbrahimovanın rəhbərliyi ilə "Uşaqların sevinci" adlı musiqili kompozisiya təqdim ediblər. Kompozisiyaya daxil olan mahnıların musiqisi və sözlərinin əksəriyyəti S.İbrahimovaya aiddir.

Tədbirin aparıcısı sənətşünaslıq üzrə fəlsəfə doktoru Səadət Təhmirazqızı olub.

# "Mədəniyyətə könül ver" – layihə üzrə təlimlər davam edir

Mədəniyyət Nazirliyinin dəstəyi, "Mədəniyyət Könüllüləri" İctimai Birliyinin təşkilatçılığı ilə həyata keçirilən "Mədəniyyətə könül ver" layihəsi davam edir. Layihə çərçivəsində "Bizimlə öyrən" adlı silsilə təlimlər, görüşlər və ustad dərsləri təşkil olunur.

Layihə üzrə növbəti təlimlər fərqli peşə sahibləri tərəfindən keçirilib. Bakı və Gəncə şəhərlərində gerçəkləşən təlimlər "Səhv etməməyin yolları", "Aparıcılığa gedən yol", "Emosional qiraət", "Kolleksiya toplamağın faydaları", "PR və media" və s. mövzuları əhatə edib.

Qeyd edək ki, layihənin məqsədi könüllülərin və yaradıcı gənclərin iştirakı ilə mənəvi irsimizi gələcək nəsillərə çatdırmaq, mədəniyyətimizin inkişafı və təbliği istiqamətində müxtəlif yönlü ictimai fəaliyyət göstərməkdən ibarətdir. Keçirilən silsilə tədbirlər eyni zamanda gənclərin maarifləndirilməsinə xidmət edir.

# Şuşada Beynəlxalq Sahibkarlar Forumu

## "Rəqəmsal Yaradıcı Həftəsonu" çərçivəsində

Xəbər verdiyimiz kimi, 31 may – 3 iyun tarixlərində ölkəmizdə "Rəqəmsal Yaradıcı Həftəsonu" (Digital Creative Weekend) layihəsi həyata keçirilib.



Layihə çərçivəsində iyunun 3-də Mədəniyyət Nazirliyinin dəstəyi, İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı – ICESCO və "New Space Open Innovation"un əməkdaşlığı ilə Şuşa Hotel-Konqres Mərkəzində Beynəlxalq Sahibkarlar Forumu təşkil edilib.

ICESCO baş direktorunun elm və texnologiya üzrə müşaviri Məhəmməd Şərif, Mədəniyyət Nazirliyi Yaradıcı sənayelər və rəqəmsal inkişaf şöbəsinin müdiri Rəşad Əzizov və Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev açılış nitqi söyləyiblər.

"Science Europe"nin baş katibi Lidia Borrell-Damianın videoçıxışı dinlənilib.

Çıxışlardan sonra forum işini panel sessiyalarla davam etdirib.

ICESCO baş direktorunun müşaviri Məhəmməd Şərifin moderatorluğu ilə gerçəkləşən panel "Startapların və gələcək inklüziv texnologiyaların önəmi" mövzusuna həsr olunub.

Kənd Təsərrüfatı İnkişaf Təşkilatının (AOAD) əməkdaşı professor Osama Rayis Afrika ölkələrinin fermer təsərrüfatı sahəsindəki problemlərindən danışıb.

Liviya Baş nazirinin keçmiş müavini, sahibkarlıq üzrə böyük məsləhətçi Məhəmməd Əhməd Ələsvad çıxışında sahibkarlıq sahəsindəki boşluqlara toxunub.

Panel sessiyada videoformatda çıxış edən Kosmos Fondunun əməliyyatlar üzrə baş direktoru Shelli Brunswick kosmonavtika sahəsi ilə bağlı öz təcrübələrini bölüşüb.

Mədəniyyət Nazirliyi Yaradıcı sənayelər və rəqəmsal inkişaf şöbəsinin müdiri Rəşad Əzizov startap sahəsinin genişləndirilməsinin vacibliyindən danışıb. Bildirib ki, innovasiya sahəsində ən vacib amil odur ki, maraqlı ideya bir ölkədə yaradılsa belə, qısa müddətdə daha böyük kütləyə, coğrafiyaya çıxış əldə etsin. Bu halda həmin startap uğurlu ola bilər.

Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev startapın, ilk növbədə, layihə səviyyəsinə qalxmalı olduğunu bildirib.

***

BMT-nin İnkişaf Proqramında (BMTİP) innovasiyalar üzrə məsləhətçi Leyla Seyidzadənin moderatorluğu ilə gerçəkləşən növbəti panel "Sahibkarlıq vasitəsilə qadınların səlahiyyətlərinin artırılması: rəqəmsal mənzərə, trendlər və çağırışlar" mövzusuna həsr olunub.

"Katalyst Labs"nın təsisçisi və baş direktoru Jehan Ara qadınların rəqəmsal biznesdə iştirakı sahəsində görülən işlərdən danışıb.

İnnovasiyalar üzrə araşdırmaçı Noshaba Awais rəqəmsal sahədə gender bərabərliyinə nail olmaq üçün ölkəsi Pakistanda görülən işlərdən danışıb.




"Ən Çox Satan Müəlliflər Şurası"nın üzvü, AI İstedad platformasının investoru Pegah Gol fəaliyyəti dövründə kişilərin qadınlara işə görə az maaş verdiyinin şahidi olmadığını deyib.

"Devcit Acceleration" şirkətinin baş direktoru Vitalia Shutova biznes bacarıqlarının uğurlu sahibkarlıq üçün önəmli olduğunu vurğulayıb.

"FemTech"in direktoru Nərgiz Əmrahova rəhbəri olduğu qurumun üzvlərinin bu gün müxtəlif mövqelərdə olduğunu söyləyib: "Bizim uğurumuz və əsas məqsədimiz xanımları xoşbəxt olduğu iş həyatına yiyələnmələridir".

***

"Startapdan biznesə doğru: mərkəzləşdirilməmiş süni intellekt" – forumun daha bir panel sessiyası bu mövzuda olub.

Səhiyyə sahəsi üzrə mütəxəssis Maria Marenconun moderatorluğu ilə gerçəkləşən sessiyada çıxış edən "Ogooue Labs"nın təsisçisi və sədri Sylvere Boussamba müasir dövrdə süni zəkanın üstünlüyündən danışıb. Bildirib ki, bu gün süni zəka vasitəsilə məlumat itkisinin qarşısı alınır.

SOCAR-ın Strateji idarəetmə və innovasiyalar departamentinin rəisi Teymur Əliyev süni zəkanın tətbiqi məsələsində ehtiyatlı yanaşmanın əhəmiyyətini qeyd edib: "Süni zəkanın tətbiqi təkcə bu texnologiyaya sahib olmaqla bitmir. Bunun üçün müəyyən biliklərə yiyələnmək lazımdır. Əgər biz bu texnologiyadan düzgün istifadə edə bilsək, müsbət nəticələr əldə etmək mümkün olar".

Məzmun yaradıcısı Stephanie Meisl dövrümüzdə sənaye sahələrinin dəyişdiyini, yeni tendensiyaların yarandığını söyləyib. Vurğulayıb ki, yeni texnologiyalardan istifadə etmək üçün çoxillik təlimlərə ehtiyac yoxdur.

Çıxışlardan sonra panel iştirakçılarının sualları cavablandırılıb.

**Nurəddin**

# Şuşa bu il həm də İslam ölkələrinin "Gənclər Paytaxtı"dır

2023-cü ilin oktyabr ayında İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Gənclər Forumunun İcraiyyə Şurasının 11-ci iclasında Azərbaycanın Şuşa şəhəri 2024-cü il üçün İƏT-in "Gənclər Paytaxtı" elan olunmuşdu.

İyunun 4-də İslam ölkələrinin ötənilki "Gənclər paytaxtı" olmuş Kazan şəhəri (Tatarıstan, RF) adından bu missiyanın simvolik açarı Şuşa şəhərinə təhvil verilib.

Mərasimdə Şuşa – İƏT "Gənclər Paytaxtı"nın loqosu təqdim olunub.

Sonra qonaqlar konsert proqramını izləyiblər.

Qeyd edək ki, Şuşada "İslam Əməkdaşlıq Təşkilatının Gənclər Paytaxtı – 2024" tədbirlərinə start verilib. 3–6 iyun tarixlərini əhatə edən proqrama "Beynəlxalq Liderlik və Diplomatiya Konfransı", "NexGen: Sosial İnnovasiyalar Forumu", "Sülh və harmoniya üçün İslam Gənclərinin Danışıqları" adlı tədbirlər daxildir. O cümlədən mədəni, təhsil, əyləncə, sosial, idman, mədəniyyətlərarası dialoq, gənclərin liderliyi və bacarıqlarının artırılması mövzularında layihələr təşkil olunacaq.

# Almatıda postsovet ölkələrinin Gənclər Teatr Forumu

əvvəli səh. 1-də

Forum çərçivəsində K.Kujamyarov adına Dövlət Musiqili Komediya Teatrında iyunun 7-də Akademik Milli Dram Teatrının "Sənsiz" tamaşası nümayiş olunacaq. Şıxəli Qurbanovun pyesi əsasında hazırlanan səhnə əsərinin quruluşçu rejissoru Nihad Qulamzadə, bəstəkarı Vüqar Babayev, rəssamı Vüsal Rəhim, işıq üzrə rəssamı Rafael Vaqifoğlu, rejissor assistentləri Xanım Həsənova və Könül Kərimovadır. Rolları Xalq artisti Mehriban Zəki, Əməkdar artist Füzuli Hüseynov, aktyorlar İlahə Həsənova, Elçin Əfəndi, Elsevər Rəhimov, Lalə Süleymanova oynayırlar.




Forumun ən yaxşı tamaşası 2025-ci ildə Moskvada keçiriləcək XVII Beynəlxalq Çexov Teatr Festivalında iştirak edəcək.

MDB ölkələri Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun dəstəyi ilə Beynəlxalq Teatr İttifaqları Konfederasiyası tərəfindən təşkil olunan forum üç ildə bir dəfə keçirilir. 2012-ci ildə Kişineu (Moldova), 2015-ci ildə Minsk (Belarus), 2018-də İrəvan (Ermənistan), 2021-də Daşkənd (Özbəkistan) foruma ev sahibliyi edib.

Rusiyanın mədəniyyət naziri Olqa Lyubimova qeyd edib ki, bu layihə yaradıcı gənclərə dəstəkdir, eyni zamanda, teatr sənətinin inkişafına mühüm töhfə verir və beynəlxalq mədəni qarşılıqlı əlaqə üçün yeni üfüqlər açır. Ünsiyyət platforması yaratmaqla, bu forum teatrın gələcəyini təyin edən gənc nəslə yaradıcılıq yüksəlişinə və inkişafına təkan verən fikir və təcrübə mübadiləsinə imkan yaradır.

# Nizaminin "Xəmsə"si türk dilinə də çevriləcək

əvvəli səh. 1-də

Qeyd edək ki, Nimet Yıldırım "Xəmsə"dən "İskəndərnamə" poemasını artıq türkcəyə tərcümə edib və əsər 2022-ci ildə türkcə nəşr olunub. AMM həmin tərcümənin də türkcə "Xəmsə"yə daxil edilərək yeni buraxılışda nəşrini planlaşdırır.



AMM-in direktoru Samir Abbasov Azərbaycan dövlətinin Nizami Gəncəvi irsinin tədqiqi və təbliğinə daim böyük önəm verdiyini qeyd edərək, 2021-ci ilin ölkəmizdə "Nizami Gəncəvi İli" elan edildiyini xatırladıb.

Nimet Yıldırım Nizami Gəncəvi əsərlərinin az sayda türk dilinə tərcümə edildiyini və bu səbəbdən dünyaşöhrətli şairin qardaş ölkədə geniş tanıdılması və təbliğinə ciddi ehtiyac olduğunu bildirib. O, dahi şairin əsərlərinin tərcüməsinin həyata keçirməyin olduqca çətin, şərəfli və məsuliyyətli iş olduğunu qeyd edərək, bu təkrarsız layihəyə imza atdığına görə özünü xoşbəxt saydığını deyib.

Qeyd edək ki, Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyi ilə Nizami Gəncəvi "Xəmsə"sinin dünyanın bir sıra dillərinə tərcüməsi həyata keçirilir. Özbəkistandakı Heydər Əliyev adına AMM-in layihəsi ilə "Xəmsə" 2015–2020-ci illərdə orijinaldan özbək dilinə tərcümə (tərcüməçi Özbəkistanın Xalq şairi Camal Kamal) edilib və nəşr olunub. Bundan başqa, nazirliyin layihəsi ilə 2021–2023-cü illərdə misirli professor Abdelaziz Mostafa Mohamed Bakuşi "Xəmsə"nin ərəb dilinə tərcüməsini həyata keçirib və yaxın vaxtlarda onun da çapı nəzərdə tutulub.

# Diplomatlar üçün "Xarici Siyasət Proqramı" başlanıb

İyunun 3-də ADA Universitetinin və Xarici İşlər Nazirliyinin nəzdində fəaliyyət göstərən Azərbaycan Respublikası Beynəlxalq İnkişafa Yardım Agentliyinin (AIDA) xarici diplomatlar üçün birgə təşkil etdiyi "Xarici Siyasət Proqramı" işə başlayıb.

ADA Universitetindən bildirilib ki, bu dəfə proqram Amerika, Afrika, Avropa və Asiya qitələrindən 14 ölkəni təmsil edən 21 diplomatı bir araya gətirib.

Proqramın açılış mərasimində ADA Universitetinin prorektoru Fariz İsmayılzadə qonaq diplomatlara ölkəmizin regiondakı geostrateji mövqeyi, regional və qlobal əməkdaşlığı barədə məlumat verib.

AIDA-nın rəisi Elməddin Mehdiyev bu proqramın beynəlxalq əməkdaşlığa verdiyi töhfədən, eləcə də Azərbaycanın yeni donor ölkəsi kimi beynəlxalq yardım sahəsində əldə etdiyi uğurlardan danışıb.

Proqram müddətində müxtəlif dövlət qurumlarının rəhbər və məsul şəxsləri xarici diplomatlar qarşısında Azərbaycanın xarici siyasət prioritetləri və uğurları, enerji diplomatiyası, beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafına Azərbaycanın töhfələri kimi mövzulara yanaşı, ölkəmizin tarixi, mədəniyyəti, turizm potensialı və s. mövzularda məruzələrlə çıxış edəcəklər.

Xatırladaq ki, 2018-ci ildən etibarən həyata keçirilən proqramda indiyədək 63 ölkədən diplomatlar iştirak ediblər.

# Vokal ulduzları Bakıda doğulur...

## Bülbül adına müsabiqəyə Şuşada yekun vurulacaq



*əvvəli səh. 1-də*

Beynəlxalq Bülbül Fondunun rəhbəri və müsabiqənin sədri Xalq artisti, bəstəkar-müğənni Polad Bülbüloğlu hər kəsi salamlayaraq dedi: "Mən şadam ki, bu gün bir sıra ölkələrdən gənc vokalçılar Bakıya gəlir, burada böyük səhnəyə vəsiqə almaq istəyirlər. Mən çox minnətdaram ki, 1997-ci ildə Ulu öndər Heydər Əliyev bu müsabiqənin keçirilməsi barədə sərəncam imzaladı. Müsabiqə artıq doqquzuncu dəfə keçirilir. VIII müsabiqənin qala-konserti və qaliblərə mükafatların təqdim edilməsi Bülbülün kiçik vətənində, Şuşada keçirilmişdi, bu il də ənənəmizə sadiq qalacağıq. Əsrlərdir ki, Şuşa "Qafqazın konservatoriyası" adlanır və Bülbül adına müsabiqə də bu adı doğruldur".

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru Xalq artisti, ilk müsabiqədən bəri münsiflər heyətinin sədr müavini Fərhad Bədəlbəyli və münsiflər heyətinin yeni sədri, dünyaşöhrətli vokalçı, Xalq artisti, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının direktoru Yusif Eyvazov iştirakçılara uğur arzuladılar.

Sonra M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında müsabiqənin açılış mərasimi gerçəkləşdi.





Polad Bülbüloğlu bu dəfə çıxışında münsiflər heyətinin bütün üzvlərini bir-bir salamladıqdan sonra Bülbül adına müsabiqədə indiyədək jüriyə rəhbərlik etmiş dünyaşöhrətli Rusiya vokalçılarının – İrina Arxipova, Yevgeni Nesterenko və Sergey Leyferkusun adlarını çəkdi: "Bu gün dünyanın ən möhtəşəm opera səhnələrində çıxış edən və bu müsabiqədə uğurlar qazanmış azərbaycanlı vokalçılar var ki, artıq onlar özləri çıxış edənlərə qiymət vermək səviyyəsindədirlər".

Mədəniyyət nazirinin müavini Murad Hüseynov vurğuladı ki, müsabiqənin laureatı olmuş bir çox müğənni hazırda dünyanın böyük səhnələrində çıxış edir və bu sənətin yayılması üçün böyük işlər görürlər: "Budəfəki müsabiqədə çıxış edəcək musiqiçilər də gələcəkdə görkəmli musiqiçi və sənətkar olacaqlar. Bizim ürəyimizdə olduğu kimi, bu müsabiqə onların da qəlbində xüsusi yer tutacaq. Bugünkü tədbirimiz də əvvəlki müsabiqələr kimi mötəbər musiqi bayramıdır. Böyük xanəndə Bülbülün adı dünya musiqi mədəniyyəti tarixinə qızıl hərflərlə yazılıb. O, Azərbaycan milli vokal sənətinin inkişafı və təbliği istiqamətində çox işlər görüb, öz məktəbini yaradıb. Hər bir iştirakçıya yaradıcılıq nailiyyətləri arzulayıram. Əminəm ki, bu müsabiqə də ölkəmizdə keçirilən möhtəşəm beynəlxalq musiqi layihələri kimi tarixə düşəcək".

2012-ci ildə Bülbül adına VI müsabiqədə I yerə layiq görülmüş, bu gün isə münsiflər heyətinin sədri olan Yusif Eyvazovun çıxışı isə böyük həmkarın gənc ardıcıllarına psixoloji tövsiyəsi kimi yadda qaldı: "Müsabiqə mühüm hadisədir. İstəyirəm ki, bu gün burada iştirak edən gənc artistlər bilsinlər ki, əgər sənə müsabiqədə qalib gəlmək və ya növbəti tura keçmək nəsib olmayıbsa, bu, qətiyyən karyera qura bilməyəcəyin və ya qalib gələnlərdən daha zəif olduğun anlamına gəlməz. Sadəcə, səhnəyə çıxıb oxuduğun anda qalib olmaq üçün lazım olan səviyyədə və yüksəklikdə olmamısan. Ona görə də narahat olmayın, çalışmağa davam edin və ən əsası, səsinizlə münsiflər heyətini təəccübləndirməyə çalışın. Biz isə qalibləri və finalçıları obyektiv şəkildə seçəcəyik. Qoy bu müsabiqədə də "ulduz" doğulsun!".

***

Açılışdan sonra müsabiqənin birinci tur dinləmələri başladı. İştirakçıların say çoxluğu nəzərə alınaraq proqramda birinci tura iki gün ayrılıb. 41 nəfər müsabiqənin ikinci turuna vəsiqə qazanıb.

İyunun 5-də müsabiqənin ikinci turu keçiriləcək. Qaliblərin mükafatlandırılması və onlarla birlikdə dəvətli vokalçıların da çıxış edəcəyi qala-konsert isə iyunun 9-da Bülbülün doğma şəhəri Şuşada olacaq.

**G.Mirməmməd**

# "Rəqəmsal Yaradıcı Həftəsonu" nə ilə yadda qaldı?

*əvvəli səh. 1-də*

### Rəqəmsal oyunlar həm də yeni ideyalara impuls deməkdir

Nazir müavini çıxışında tədbirin ərsəyə gəlməsində əməyi olan təşkilatçılara, sponsorlara və könüllülərə təşəkkür edərək iştirakçıları və qonaqları təntənəli və kəşfli atmosferdə iştirak etməyə çağırıb: "Oyun texnologiyasında ən son yenilikləri araşdırın, interaktiv zonalarda iştirak edin və mövcud olan şəbəkələşmə imkanlarından faydalanın".

Vurğulayıb ki, tədbir yalnız əyləncə haqqında deyil, bu, cəmiyyət haqqında, insanları bir araya gətirmək, yeni ideyalara impuls vermək barədədir. Bu, sənətkarların, tərtibatçıların və həvəskarların əməkdaşlıq edə, işlərini paylaşa və bir-birilərini ilhamlandıra biləcəkləri bir yerdir.

***





Qeyd edək ki, festival proqramına biznes konfrans, yerli şirkətlər arasında ən yaxşı kompüter oyunu üzrə müsabiqə, həmçinin "Yaradıcı" brendi, rəqəmsal incəsənət, animasiya və digər sərgi pavilyonlarının yaradılması, müxtəlif interaktiv əyləncələr – arkad maşınları, VR zonası və müstəqil yerli tərtibatçıların oyunlarının nümayişi də daxil idi. Oyun sammitində "e-Sports" kateqoriyası üzrə müxtəlif yarışmalar, "Cosplay" (xüsusi personajların həvəskarlar tərəfindən nümayiş etdirilməsi), "K-pop" (Koreya pop musiqisi) rəqsləri və musiqili çıxışlar, həmçinin "AzDimension" studiyası tərəfindən həmin günədək elan olunmamış oyunlar təqdim edilib.




Açılış mərasimi konsert proqramı və təqdimatlarla davam edib. Oyun sammiti 3500-dən çox kompüter oyunu həvəskarını, oyun tərtibatçısını və şirkətləri, icmaları, İT startapları, eləcə də müxtəlif dövlət qurumlarının nümayəndələrini bir araya gətirib.

Festivalın ilk günü 5 trek olmaqla texnologiya, innovasiya və yaradıcı sənayelər, texnologiya, kənd təsərrüfatı və ətraf mühit və s. sahələri əhatə edən mühazirələr dinlənilib.

Müxtəlif şirkətlərin pavilyonlarında təqdimatlar və eləcə də müsabiqə oyunları, yeni yaradılan oyunların təqdimatı olub.

### "A-Hub Akselerasiya Proqramı"nın finalı Bakıda başladı...

İyunun 2-də layihə çərçivəsində Mədəniyyət Nazirliyinin dəstəyi, İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı – ICESCO və "New Space Open Innovation"ın əməkdaşlığı ilə "A-Hub Akselerasiya Proqramı"nın (2023-cü il üzrə) dünya finalı təşkil edilib.

Əvvəlcə ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malikin videoçıxışı dinlənilib.




Mədəniyyət nazirinin müavini Fərid Cəfərov qonaqları salamlayıb. Qeyd edib ki, Mədəniyyət Nazirliyi bu layihəni ICESCO ilə birlikdə icra etməkdədir: "Çox şadıq ki, bu platforma irimiqyaslı layihəyə çevrilib. Biz gələcəkdə bu platformanı inkişaf etdirmək üçün yeni təşəbbüslər irəli sürəcəyik".

Azərbaycanla ICESCO arasında əməkdaşlığa toxunan nazir müavini söyləyib ki, bu günə kimi ölkəmizin bu qurumla məhsuldar əməkdaşlığı olub: "Buna nümunə olaraq Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsini qeyd edə bilərik. Şuşanın "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi mötəbər bir hadisədir. Sizlər sabah Şuşaya səfər zamanı bu qədim şəhərimizin necə bariz bir şəkildə islam mədəniyyətini ehtiva etdiyini öz gözlərinizlə görəcəksiniz".

ICESCO baş direktorunun elm və texnologiya üzrə müşaviri Məhəmməd Şərif qonaqpərvərliyə görə ölkəmizə təşəkkür edib, dünya finalında iştirak edən komandalara uğurlar arzulayıb. Tədbir çərçivəsində layihə iştirakçılarının Azərbaycanın zəngin mədəniyyəti ilə tanış olacağına əminliyini bildirib.

"New Space Open Innovation"ın təsisçisi Leyla Tağızadə layihə haqqında məlumat verib. Qeyd olunub ki, layihə ICESCO-ya üzv ölkələrdə 2021-ci ildən etibarən innovativ inkişaf üzrə təşəbbüslərin dəstəklənməsi, biznes subyektlərinin və gənclərin bu sahəyə marağının artırılması, mədəniyyət sahəsi ilə özəl yaradıcı sahibkarlıq subyektlərinin əlaqələndirilməsi məqsədilə həyata keçirilir: "Biz 3 il əvvəl bu layihəyə başlayanda heç təsəvvür edə bilməzdik ki, bu gün Azərbaycanda belə möhtəşəm dünya finalı keçiriləcək. Dünya finalında 11 ölkədən 30-dan çox innovativ komanda iştirak edir".




Çıxışlardan sonra startap komandaları öz ideyalarını təqdim ediblər.

### ... və 30 min dollar Şuşada bölüşdürüldü

İyunun 3-də "Digital Creative Weekend" layihəsi Şuşada davam edib. ICESCO ölkələrindən innovativ layihələrin yarışdığı "A-Hub Akselerasiya Proqramı"nın qalibləri də bu il "İslam dünyasının mədəniyyəti paytaxtı" olan şəhərimizdə elan edilib.

Şuşa Hotel-Konqres Mərkəzində proqramın qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

Dünya finalında Azərbaycan, Cibuti, Tunis, Tacikistan, Türkiyə, Liviya, Seneqal, Somali, Misir, Mali və Sudandan 30-dan çox innovativ komanda iştirak edib. Onlar öz ideyalarını nümayiş etdirərək ümumilikdə 30 min dollar pul mükafatı uğrunda yarışıblar.

Yekun nəticələrə əsasən, "Snack Pack" (Azərbaycan) komandası I, "ReSkill" (Tacikistan) komandası II, "Biopols" (Türkiyə) komandası III, "Caredify" (Tunis) komandası isə IV yeri qazanıb.

I yer üçün 10 min, II yer üçün 8 min, III və IV yerlərin hər biri üçün 6 min dollar məbləğində pul mükafatı verilib.

Sonda ailə fotosu çəkdirilib.

Xatırladaq ki, "A-Hub Akselerator"u, ICESCO və "New Space Open Innovation"un əməkdaşlığı ilə həyata keçirilən, Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyi ilə yaradılmış bir təşəbbüsdür. Akselerator proqramı yaradıcı və texnoloji startapları dəstəkləyərək, onların ideyalarını reallaşdırmaq üçün lazım olan resursları və mentorluğu təmin edir. 2021-ci ildə pilot layihə kimi başlayan proqram hazırda 20 ölkədə fəaliyyət göstərir və daha da genişlənməkdədir.

***

İyunun 4-də "A-Hub Akselerasiya Proqramı"nın iştirakçıları üçün Şuşa şəhərinə ekskursiya təşkil edilib.

Ekskursiya zamanı qonaqlar şəhərdə otuz ilə yaxın davam etmiş işğal dövrünün nəticələrini görüb, Şuşanın tarixi abidələri, şəhərdə aparılan bərpa-quruculuq işləri barədə məlumat alıblar. Qonaqlar Şuşa qalası (Qala divarları) önündə xatirə şəkilləri çəkdiriblər.

**Nurəddin**

# Nobel mükafatçısı Əziz Səncərin şərəfinə

## AMEA-nın xüsusi iclası keçirilib

Xəbər verildiyi kimi, kimya üzrə Nobel mükafatı laureatı, ABŞ-nin Şimali Karolina Universiteti Biokimya və biofizika fakültəsinin professoru, AMEA-nın fəxri üzvü Əziz Səncər mayın 30-da Azərbaycana gəlib.

AMEA-nın dəvəti ilə gerçəkləşən səfər müddətində qonaqla Bakıdakı bir sıra elm-tədris müəssisələrində görüşlər keçirilib. Dünyaşöhrətli alim AMEA-nın Naxçıvan Bölməsini, elmi müəssisə və təşkilatlarını, ali təhsil müəssisələrini də ziyarət edib.

İyunun 3-də AMEA-da Əziz Səncərlə görüşə həsr olunmuş xüsusi iclas keçirilib.

Tədbirdən öncə AMEA-nın Rəyasət Heyətinin binasında yerləşən AMEA-TÜBİTAK Koordinasiya Mərkəzinin nəzdində "Əziz Səncər şərəf otağı"nın açılışı olub. Əziz Səncər mərkəzin xatirə dəftərinə ürək sözlərini yazıb.

Tədbiri açan AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Türk dünyasının fəxri olan alimin ölkəmizə bu səfərinin Azərbaycanın elm ictimaiyyəti üçün əlamətdar hadisə olduğunu deyib. O, Əziz Səncərin elmi fəaliyyətinə nəzər salıb. Qeyd edib ki, alim Dallasdakı Texas Universitetində molekulyar biologiya proqramı üzrə doktorantura təhsili alıb. 1997-ci ildən bu günə kimi ABŞ-nin Şimali Karolina Universitetinin Biokimya və biofizika bölməsində fəaliyyətini davam etdirir. Əziz Səncər xərçəngin bioloji və biokimyəvi üsullarla müalicəsini tədqiq edib və bu istiqamətin əsas yaradıcısıdır. O, 2005-ci ildə ABŞ Elmlər Akademiyasına üzv seçilən ilk amerikalı türk olub, 2006-cı ildə isə Türkiyə Elmlər Akademiyasının həqiqi üzvü seçilib. 2015-ci ildə DNT-nin bərpası işinə görə iki alim həmkarı ilə birgə kimya üzrə Nobel mükafatına layiq görülüb.

Ötən il noyabrın 29-da AMEA-nın Ümumi yığıncağında professor Əziz Səncərin akademiyanın fəxri üzvü seçildiyini xatırladan İsa Həbibbəyli AMEA-nın fəxri üzvü diplomunu və medalı ona təqdim edib.

Sonra çıxış edən Azərbaycan Yazıçılar Birliyinin (AYB) sədri Xalq yazıçısı Anar dünyaşöhrətli alimlə bu görüşü AMEA Rəyasət Heyətində tarixi hadisə kimi dəyərləndirib. O, Əziz Səncəri AYB-yə dəvət edib.

Elm və Təhsil Nazirliyinin Aşqarlar Kimyası İnstitutunun direktoru akademik Vaqif Fərzəliyev Azərbaycan-Türkiyə elmi əlaqələri haqqında danışıb, ikitərəfli əməkdaşlığın inkişafında Əziz Səncərin mühüm rolunu vurğulayıb.

Sonra Əziz Səncər "Türk dünyası elm siyasəti: reallıqlar və çağırışlar" mövzusunda elmi məruzə ilə çıxış edib. Vurğulayıb ki, elm insanlığa, bəşəriyyətə xidmət etməlidir. Alim çıxışında "elmi fəaliyyət necə qurulmalıdır" sualına toxunub, Türk dünyasında elmi əlaqələrin inkişafının vacibliyini vurğulayıb.




"Xəyalım Türk dünyasının birliyini görməkdir", – deyən alim bu istiqamətdə bütün türk dövlətlərinə səfər etdiyini, görüşlər keçirdiyini bildirib.

Nobel mükafatı laureatı çıxışında əsas elmi prioritetlərin müəyyənləşdirilməsi, oğlan və qızların bərabər təhsil hüquqlarının təmin olunması, nəzəriyyələrin təcrübədən keçirilməsi, alimlərin təşviq edilməsi kimi tövsiyələrini də səsləndirib.

Qeyd edək ki, Əziz Səncərin səfəri iyunun 6-dək davam edəcək.

# Gözəl qadının qınağına tuş gəldinsə...

Bu cümləni tam fərqli fikirlərlə davam etdirmək olar. Hələliksə, bunu deyirik ki, həmin gözəl qadının qınağının hədəfi kürsüdə əyləşmiş kişidir, üstəlik, qınağın mənbəyi də sevgidir. Söhbət iyunun 2-də Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında keçirilən premyeradan gedir.



Həmin gün teatrda dünyaşöhrətli Kolumbiya yazıçısı Qabriel Qarsiya Markesin "Kürsüdə əyləşmiş kişiyə sevgi qınağı" pyesi əsasında hazırlanmış eyniadlı tamaşa ilk dəfə oynanıldı. Monotamaşa Xalq artisti Natalya Şarovskayanın 65 illik yubileyinə həsr olunub.

Quruluşçu rejissor Xalq artisti Aleksandr Şarovskinin rəhbərlik etdiyi yaradıcı komandada Əməkdar mədəniyyət işçiləri Aleksandr Fyodorov dekorasiya üzrə, Olqa Abbasova geyim üzrə rəssam, Vladimir Neverov isə musiqi tərtibatçısı vəzifələrini icra ediblər. Əsərin xoreoqrafik həlli üzərində Olqa Arsentyeva, işıq effektləri üzərində isə Nikolay Rudıçev çalışıblar.

Natalya Şarovskaya istedadlı və təcrübəli aktrisa kimi tanınsa da, cari repertuarda kifayət qədər məşğul olsa da, təxminən 1 saat davam edən tamaşa boyunca salonu öz cazibəsində saxlaya bildi. Əsər gümüş toyuna hazırlaşan çox imkanlı kişinin həyat yoldaşı olan Qadının öz ərinə qarşı dəlicəsinə vurğunluqdan tam biganəliyə qədər irəliləyən hisslərindən bəhs edir.

Uğurla keçən tamaşadan sonra sevimli aktrisalarını bir daha seyr etmək üçün teatra təşrif gətirmiş tamaşaçılar, sənətkarı hətta çox kiçik yaşdan tanıyan, orta məktəbdən dostluq edən ziyalılar Natalya Şarovskayanı təbrik etdilər.

Baş rejissor Xalq artisti Aleksandr Şarovski Mədəniyyət Nazirliyi və teatr rəhbərliyi adından təbrikləri yubilyara çatdırdı.

Gecənin sonunda yubilyar çıxış edərək dedi: "Əvvələn, öz valideynlərimə minnətdaram ki, məni belə gözəl ölkədə dünyaya gətiriblər. İllərlə birlikdə çalışdığım teatrın rəhbərliyinə bu diqqətə görə, kollektivə isə bu dəstəyə görə çox minnətdaram".

**Gülcahan**

# Uşaqların bayramı münasibətilə

## Tamaşa və konsertlər





Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyində olan Vaqif Mustafazadə adına Mədəniyyət Mərkəzində "Yağışı sevməyən uşaq" adlı tamaşa nümayiş olunub. Səhnə işi 1 iyun – Beynəlxalq Uşaqları Müdafiə Gününə həsr olunub.

Tamaşanın personajları Çeki, Portağal, Hikmət və İsi yağışın, ətraf aləmə faydası haqqında uşaqları məlumatlandırıb. Bildiriblər ki, torpağın canlanmasında yağışın önəmli rolu var.

Sonda uşaqlar sevdiyi personajlarla birlikdə, rəngarəng musiqi nömrələri ilə çıxış ediblər.

***

Uşaqların bayramı münasibətilə M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında tanınmış yazıçı Vüqar Haqverdiyevin "Qarınqulu ayı balası" pyesi əsasında hazırlanmış eyniadlı birhissəli tamaşanın premyerası olub.





Tamaşanın quruluşçu rejissoru Xalq artisti Şirzad Abutalıbov, quruluşçu rəssamı NMR-in Əməkdar rəssamı Rafael Qədimov, musiqi tərtibatçısı Əli Məmmədovdur.

Uşaqlara mərhəmət, sevgi və dürüstlük aşılayan ibrətamiz səhnə əsərində Ulduz Süleymanova, Süleyman Süleymanov, İlqar Babayev, İlham Babayev, Əfqanə Ələsgərova, Sənan Abutalıbov və İbad Nəbiyev rol alırlar.

***

Azərbaycan Dövlət Uşaq Filarmoniyasının uşaq-gənclər xalq çalğı alətləri orkestri isə bayram münasibətilə növbəti konsert proqramını təqdim edib.

İyunun 1-də bədii rəhbər və baş dirijor, Xalq artisti Ağaverdi Paşayevin rəhbərliyi ilə Beynəlxalq Muğam Mərkəzində gerçəkləşən konsert eyni zamanda orkestrin 15 illiyinə həsr olunub.

Musiqi axşamında orkestrin respublika və beynəlxalq müsabiqələr laureatları olan solistləri Azərbaycan və Qərbi Avropa bəstəkarlarının əsərlərini səsləndiriblər.

***

Bakı Xoreoqrafiya Akademiyasının (BXA) tam orta təhsil pilləsinin təşkilatçılığı ilə uşaqların bayramına həsr olunmuş tədbir keçirilib.

Şagirdlərin ifasında şeirlər səsləndirilib, rəqs kompozisiyaları nümayiş etdirilib, mahnılar ifa olunub.

Tədbir çərçivəsində tam orta təhsil pilləsinin təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcılarından olan Məhəmməd Əmin Rəsulzadənin 140 illiyi münasibətilə keçirilmiş bədii qiraət müsabiqəsinin qaliblərinə təşəkkürnamələr təqdim edilib.

# Musiqi məktəbinin sənət hesabatı

L. və M.Rostropoviçlər adına 21 nömrəli Musiqi məktəbinin ənənəvi hesabat konserti mayın 31-də Beynəlxalq Muğam Mərkəzində keçirilib.

Əvvəlcə məktəbin direktoru Məmməd Quliyev çıxış edərək deyib ki, bu ilin ilk hesabat konserti Bakı Musiqi Akademiyasında təşkil olunub. Konsertlərdə məktəbin ən istedadlı şagirdləri çıxış edirlər. Onların sırasında beynəlxalq və respublika müsabiqələri laureatları var. Bu cür konsertlərin təşkili gənclər üçün təcrübə məktəbidir.

Sonra şagirdlər səhnəyə çıxıblar. Konsert proqramında Azərbaycan və Avropa bəstəkarlarının əsərləri səslənib. Fortepiano, violin, fleyta, qarmon, arfa, tar, kamança, qanun, nağara alətləri üzrə təhsil alan şagirdlərin rəngarəng çıxışları alqışlarla qarşılanıb.



Konsert məktəbin xalq çalğı alətləri ansamblının ifasında Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasından musiqi və "Heyratı" kompozisiyası ilə yekunlaşıb.

# Azərbaycan balet sənətinin canlı əfsanəsi

## 95 illiyi münasibətilə evində ziyarət olunub

Mayın 30-da görkəmli baletmeyster, Azərbaycan balet sənətinin canlı əfsanəsi, Xalq artisti, Prezident təqaüdçüsü Maqsud Məmmədovun 95 yaşı tamam olub.



Bu münasibətlə iyunun 1-də mədəniyyət nazirinin müavini Murad Hüseynov və nazirliyin məsul əməkdaşları sənətkarı evində ziyarət ediblər.

Nazir müavini sənətkarı yubileyi münasibətilə təbrik edib, cansağlığı arzulayıb. Qeyd olunub ki, peşəkar təhsil almış ilk azərbaycanlı balet artisti olan Maqsud Məmmədov Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında solist kimi fəaliyyətə başlayıb, qısa müddət ərzində özünü istedadlı, səhnəyə böyük məhəbbətlə bağlı, daim axtarışda olan sənətkar kimi geniş tamaşaçı rəğbəti qazanıb.

Bildirilib ki, Maqsud Məmmədovun Azərbaycan balet sənətinin inkişafındakı xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilib. "Xalq artisti" fəxri adına layiq görülən, "Şöhrət" ordeni ilə təltif olunan sənətkar 2002-ci ildən Prezident təqaüdçüsüdür.

Xalq artistinə Mədəniyyət Nazirliyinin Fəxri diplomu təqdim olunub.

Qocaman sənətkar yaradıcılığına göstərilən diqqətə görə təşəkkürünü bildirib.

Qeyd edək ki, 1929-cu ildə Gəncədə dünyaya göz açan Maqsud Davud oğlu Məmmədov erkən yaşlarından rəqslə məşğul olmağa başlayıb. Bakı Xoreoqrafiya Məktəbinə daxil olub. Burada yüksək sənət göstəriciləri nəzərə alınaraq Moskva Xoreoqrafiya Məktəbinə göndərilib. Təhsilini başa vurduqdan sonra taleyini Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrına bağlayıb. Dünya və Azərbaycan balet sənəti nümunələrində mürəkkəb partiyaları – Ziqfrid ("Qu gölü"), Albert ("Jizel"), Bazil ("Don Kixot"), Polad ("Qız qalası"), Azad ("Gülşən"), Fərhad ("Məhəbbət əfsanəsi"), Lenni ("İldırımlı yollarla") və s. böyük uğurla ifa edib.

Maqsud Məmmədov yaradıcılıq fəaliyyəti boyunca Misir, Yəmən, Əlcəzair, Türkiyə və İsveçdə də çalışıb, milli xoreoqrafiya sənətimizin təbliğatçısına çevrilib.

Onun həyat yoldaşı, görkəmli balerina, Xalq artisti Rəfiqə Axundova (1931–2024) ilə birgə quruluş verdiyi A.Əlizadənin "Babək", T.Bakıxanovun "Xəzər balladası", F.Qarayevin "Qobustan kölgələri" baletləri, R.Hacıyevin "Azərbaycan süitası" və başqa xoreoqrafik nümunələr hər ikisinə şöhrət qazandırıb.

# Xalq Çalğı Alətləri Orkestrinin bayram konserti

Mayın 31-də Beynəlxalq Muğam Mərkəzində (BMM) Səid Rüstəmov adına Xalq Çalğı Alətləri Orkestrinin (bədii rəhbər və baş dirijor Mustafa Aşurov) 28 May – Müstəqillik Gününə həsr olunan konsert proqramı keçirilib.



Konsertdə Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərləri təqdim olunub. Xalq artisti Gülyanaq Məmmədova, BMM-in solisti Rəvanə Qurbanova, Cahangir Cahangirov adına Xor və digər solistlərlə birgə təqdim olunan əsərlər tamaşaçıların alqışları ilə qarşılanıb.

Qeyd edək ki, Xalq Çalğı Alətləri Orkestri Müslüm Maqomayevin təklifi ilə Üzeyir Hacıbəyli tərəfindən 1931-ci ildə yaradılıb. Bununla nəinki Azərbaycanda, bütün Şərq aləmində professional notlu xalq çalğı alətləri orkestrinin əsası qoyulub. Uzun illər Azərbaycan Radiosu və Televiziyasının musiqi kollektivi olmuş orkestr 2023-cü ildən BMM-in tərkibində fəaliyyətini davam etdirir.



# Səhnədə yeni "Qaraca qız"

Uşaq ədəbiyyatımızda ən maraqlı nümunələrdən biri Süleyman Sani Axundovun "Qaraca qız" hekayəsidir. Sənətkarlıq və məzmun baxımından seçilən əsər, bədii məziyyətləri ilə yanaşı, yetişən nəsillərə mənəvi saflığın aşılanmasına, bütün çətinliklərə rəğmən yüksək insani keyfiyyətlərin qorunmasına xidmət edir.

Geniş tamaşaçı auditoriyası mərhəmətli qızcığazın kədərli hekayəsi ilə 1966-cı ildə (rejissor Şamil Mahmudbəyov) böyük ekrana çıxan eyniadlı filmlə tanış olub. Amma buna qədər əsər teatr səhnəsində tamaşaçı ilə görüşüb. Görkəmli ədib Abdulla Şaiq 1948-ci ildə S.S.Axundovun "Qaraca qız" hekayəsi əsasında Gənc Tamaşaçılar Teatrı üçün eyniadlı pyes yazır və bu nümunə teatrın repertuarında uzun müddət maraqla izlənilir. Bundan əlavə, tanınmış bəstəkar, Xalq artisti Əşrəf Abbasov əsər əsasında uşaqlar üçün ilk milli balet (librettio: Əfrasiyab Bədəlbəyli) yazıb.

Zaman-zaman klassik nümunələrə yenidən qayıtmaqla uşaq və yeniyetmələri fərqli mövzulara cəlb etməyə çalışan Gənc Tamaşaçılar Teatrı da bir daha bu əsərə müraciət edib.

Beləliklə, iyunun 2-də Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrında "Qaraca qız" tamaşasının premyerası oldu.

Səhnə əsərinin quruluşçu rejissoru Xalq artisti Cənnət Səlimova, rejissoru Əməkdar artist Nofəl Vəliyev, rejissor assistentləri Sona Mikayılova, Gülnar Əlövsətqızı, rəssamı Nisə Hətəmova, musiqi tərtibatçısı İradə Muradovadır.

Birhissəli tamaşada Əməkdar artistlər Qəmər Məmmədova, Elnur Hüseynov, Mehriban Abdullayeva, Gülər Nəbiyeva, aktyorlar Rəşad Səfərov, Ramiq Nəsirov, Xalidə Əliməmmədova, Zemfira Əbdülsəmədova, İradə Rəşidova, Ədalət Əbdülsəməd, Elgün Yəhyayev, Asya Atakişiyeva, Nəzrin Zeynalova, Anar Seyfullayev, Ramil Məmmədov, Könül Əbilova, Simuzər Ağakişiyeva, Zümrüd Quliyeva, Aygün Fətullayeva, Hilal Dəmirov, Mətləb Abuşov, Nuranə Hüseynova, Gülbəniz Lətifova, Yusif Dadaşov, Xaliq Bəkirov rol alıblar.

Quruluş müəllifi səhnə əsərində cəmiyyətdəki ayrı-seçkilik, insanlar arasındakı təbəqələşmə, varlı ilə kasıb, özünü ali hesab edənlə adi cəmiyyət fərdləri arasında yaradılmış, bir növ acı da olsa, qəbul edilmiş düşüncə tərzinə etirazını bildirir. Tamaşada əsərin faciəvi sonluğuna vurğu edilməsi də məhz buna xidmət edir və insanların mənəvi şikəstliyi hesabına qazanılan maddi üstünlüyə etiraz ifadəsidir.

Hekayətdən də bəlli olduğu kimi, valideynlərini itirən Tutu adlı qız qaraçılar tərəfindən qaçırılır. Amma hadisələrin cərəyanı nəticəsində o, qaraçı dəstəsindən ayrı düşür. Təkbaşına taleyin ümidinə qalan Tutunu meşədə



dostları ilə ova çıxan Hüseynqulu ağa tapır və xeyirxahlıq göstərərək malikanəsinə gətirir. Hər kəsin Qaraca deyə çağırdığı qızcığaz bağban Piri babanın yanında yaşamağa başlayır. Hüseynqulu ağanın qızı Ağca ilə tanış olduqdan sonra həyatı dəyişir. O artıq özünə sadiq dost qazandığını zənn edir. Geyimkecimlərindəki kəskin fərq onların dostluğuna mane olmur. Amma bu, Ağcanın anası Pərichan xanımın heç xoşuna gəlmir.

Amansız qadın onları ayırmağa müvəffəq olur. Bir gün dostu Ağcanı ilan sancır və Qaraca qız özünü fəda etməklə onu xilas edir. İlanın zəhəri həyatına son qoyur.

C.Səlimovanın quruluşunda biz sələqəli, sadə tərtibatla klassik nümunəyə xarakterik baxış gördük. Öz rejissor üslubu ilə daim seçilən Cənnət xanım bizi məlum hekayətə fərqli təsvir fonunda aparmaqla tamaşaçını səhnə ilə yanaşı real həyata, bir növ indi də rastlaşdığımız Qaraca qızların taleyinə yaxından baxmağa səslədi.

Tamaşanın səhnə tərtibatı ilə bərabər, geyimlər də rəng və konstruksiya baxımından sadə və maraqlı idi. Aktyor heyəti də mürəkkəb insan münasibətləri, maddi dəyərlərin mənəvi keyfiyyətləri darmadağın etməyə çalışdığı səhnə vasitəsilə ümumi ideyadan irəli gələn məqamları səlis ifadə etdi.

**Həmidə**

# Kuklaçılar festivalda

Azərbaycan Dövlət Kukla Teatrı 1–4 iyun tarixlərində Gürcüstanın paytaxtı Tbilisidə Uşaq və Gənclər Beynəlxalq Teatr Festivalında iştirak edib.

Gürcüstan İncəsənət Araşdırmaları İnstitutunun UNESCO-nun Beynəlxalq Teatr İnstitutu ilə birgə təşkil etdiyi ənənəvi festivalda tamaşa nümayişləri ilə yanaşı ustad-dərsləri verilib, kukla sənəti mövzusunda məruzələr dinlənilib.

10-dan artıq ölkədən teatr kollektivlərinin qatıldığı sənət bayramında kuklaçılarımız "Məlikməmməd" (Azərbaycan xalq nağılı əsasında) tamaşası ilə çıxış ediblər.

Kollektiv bu tamaşanı azərbaycanlıların kompakt yaşadıqları Marneulidə də göstərib.

Məlumat üçün deyək ki, səfər Azərbaycan Dövlət Kukla Teatrı ilə Gürcüstan Dövlət Kukla Teatrları Birliyi arasında 2022-ci ildə imzalanmış əməkdaşlıq memorandumu çərçivəsində reallaşıb.

# Tanınmış mədəniyyət işçisi Rauf Məlikzadə vəfat edib



Tanınmış mədəniyyət işçisi, uzun illər Azərbaycan Dövlət Rəsm Qalereyasında çalışmış Rauf Məlikzadə mayın 31-də, 72 yaşında vəfat edib.

Rauf Mirzəbəy oğlu Məlikzadə 4 iyun 1952-ci ildə Bakı şəhərində anadan olub. 1972-ci ildə M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun Mədəni-maarif fakültəsinə daxil olub, 1976-cı ildə institutu mədəni-maarif işçisi ixtisası üzrə bitirib.

Əmək fəaliyyətinə 1976-cı ildə Azərbaycan Teatr Cəmiyyətində (indiki Teatr Xadimləri İttifaqı) başlayıb. 1978-ci ildə "İnşaatçılar" Mədəniyyət Sarayında Kütləvi işlər şöbəsinin müdiri vəzifəsində işləyib. 1979-cu ildən Respublika Xalq Yaradıcılığı Evində metodist, 1982-ci ildən "Aygün" Məişət Birliyində sahə ustası vəzifəsində çalışıb.

1986 – 2022-ci illərdə Azərbaycan Dövlət Rəsm Qalereyasında müxtəlif vəzifələrdə işləyib, o cümlədən qalereyanın direktor müavini kimi təsviri sənətlə bağlı bir çox layihə və tədbirlərin həyata keçirilməsində yaxından iştirak edib.

Rauf Məlikzadənin xatirəsi iş yoldaşlarının, onu tanıyanların qəlbində yaşayacaq.

Azərbaycan Dövlət Rəsm Qalereyasının kollektivi Rauf Məlikzadənin vəfatı ilə əlaqədar mərhumun ailəsinə, yaxınlarına dərin hüznlə başsağlığı verir.

Allah rəhmət eləsin.

**Səttar Axundov – 110**

# Ədəbiyyat və folklorumuzun yorulmaz tədqiqatçısı

## Səttar Axundov istedadlı yazıçı-dramaturq kimi də tanınıb

Xalq yaddaşının öyrənilməsi bir ulusun adət-ənənələrinə, deyim-duyumuna, bütövlükdə etnik-mədəni sisteminə işıq salmaq deməkdir. Dramaturq, folklorşünas Səttar Axundov da bədii əsərləri ilə yanaşı, xalq aşıq şeirinin öyrənilməsi və nəşri sahəsində diqqətəlayiq fəaliyyət göstərib. Tanınmış ziyalını anadan olmasının 110 illiyi münasibətilə yada saldıq.

Səttar Mirzə Əli oğlu Axundov 1914-cü ildə indiki Füzuli rayonunun Alxanlı kəndində ruhani ailəsində dünyaya göz açıb. İlk təhsilini molla məktəbində alıb. Atası 1923-cü ildə gözlənilmədən vəfat edir. Səttar anasının və böyük qardaşının himayəsində böyüyür. Orta məktəbi bitirdikdən sonra Pedaqoji İnstitutun (indiki ADPU) Dil və ədəbiyyat şöbəsinə qəbul olunur. Ali təhsilini başa vurduqdan sonra Bakı şəhərində Respublika Xalq Yaradıcılığı Evində əmək fəaliyyətinə başlayır. 1939-cu ilin payızında ordu sıralarına çağırılır. II Dünya müharibəsinin iştirakçısı olur. Ordudan tərxis olunduqdan sonra əvvəlki iş yerinə qayıdır. Ədəbi yaradıcılıqla yanaşı, folklor nümunələrini, xüsusilə aşıq yaradıcılığını araşdırır.

Səttar Axundov ədəbiyyata "Çətin dərə" adlı əsəri ilə gəlir. Müharibə illərində azərbaycanlı gənclərin ön cəbhədə göstərdiyi qəhrəmanlıqlardan bəhs edən əsər 1942–1943-cü illərdə Dövlət Gənc Tamaşaçılar Teatrında səhnələşdirilib, sənətsevərlər tərəfindən maraqla qarşılanıb. İlk pyesinin uğurlu səhnə taleyi onun dramaturgiyaya marağını daha da artırır. Bir-birinin ardınca "Qayğı", "Dostlar", "Məhəbbət nişanəsi", "Düşərgədə nişan", "Məzəlizadələr", "Almasın qızları", "El gücü, sel gücü", "Nişan üzüyü" və başqa pyeslərini qələmə alıb. Bu əsərlər Naxçıvan, Gəncə, Ağdam, Xankəndi, Mingəçevir və Lənkəran teatrlarında müvəffəqiyyətlə tamaşaçılara təqdim edilib. "Zərif tellər" əsəri isə Akademik Milli Dram Teatrında oynanılıb. Araşdırmalardan məlum olur ki, respublikanın əksər bölgələrinin dövlət və xalq teatrlarında onun 35 əsəri tamaşaya qoyulub.



Uzun müddət Respublika Xalq Yaradıcılığı Evində çalışması Səttar Axundovu özfəaliyyət teatrlarına daha çox yaxınlaşdırır. O kiçik həcmli pyeslərini qələmə alarkən rayon mərkəzlərindəki klub və mədəniyyət evlərinin səhnə imkanlarını, habelə həvəskar artistlərin ifaçılıq səviyyəsini nəzərə alıb. Bir çox şəhər və qəsəbələrin özfəaliyyət kollektivləri S.Axundovun əsərlərini səhnələşdirərək zəhmətkeşlər qarşısında nümayiş etdiriblər.

Müəllif uğurlu nəsr nümunələri də qələmə alıb. "Araz əfsanəsi", "Güllü xalça" hekayələri qədim xalçaçılıq sənətindən bəhs edir.

S.Axundov bədii yaradıcılıqla elmi araşdırmalarını paralel şəkildə aparıb. Aşıq Teymur, aşıq Ədhəm, Şeyda Əziz və başqalarının yaradıcılığını təhlil süzgəcindən keçirib. O, eyni zamanda Q.Zakir, M.S.Sabahi, M.P.Vaqif, Aşıq Pəri, Həsən Əli oğlunun bir neçə şeirinin yer aldığı, tanınmış şair və tarixçi-salnaməçi Mir Mehdi Xəzaninin şeirlər dəftərini aşkara çıxararaq tədqiqata cəlb edib. S.Axundov ümumilikdə, 150 min misra aşıq şeiri, bayatı, atalar sözü, 15 dastan, yüzə yaxın nağıl və s. toplayıb nəşr etdirib. "Aşıqlar", "Dəniz haqqında nəğmə", "Çoban Əfqan", "Aşıq Bilal" və s. kitabları elmi ictimaiyyət və oxucular tərəfindən maraqla qarşılanıb. Tədqiqatçının min bir zəhmətlə toplayıb qoruduğu arxiv sənədləri arasında 1961-ci ildə keçirilmiş Azərbaycan aşıqlarının III qurultayının materialları da böyük əhəmiyyət kəsb edir. S.Axundovun yazar və folklorşünaslıq fəaliyyəti Xalq yazıçısı Mehdi Hüseynin diqqətindən yayınmayıb. Yazıçı, xüsusilə, onun "Araz əfsanəsi" povestini yüksək dəyərləndirib.

Həyatını bədii yaradıcılığa və xalq yaradıcılığının öyrənilməsinə həsr edən Səttar Axundov 11 sentyabr 1994-cü ildə, 80 yaşında dünyasını dəyişib.

**Savalan Fərəcov**

# Yarpaq ollam burda mən...

## Laçınlar oylağında yüz il timsallı bir gün



İstedadlı rejissor, dağlar oğlu Amil Amalın "Laçına dəvətlisiniz" mesajından sonra "Evlənmək istəyirəm" filmindən (və Ramiz Rövşənin qələmindən) bu məşhur mahnı sözləri dilimdə əzbər olmuşdu. Dəvəti aldığım gündən elə bil oralardaydım. Ömrümdə olmadığım yerlərə gedəcəkdim. Laçınlı tanışlarımın vəsfindən doymadığı, ailə yaxınımızın "Laçın" deyə-deyə bu dünya ilə vidalaşarkən belə "Ağanusun suyundan başıma çəksəm, düzəlləm" (səfərdə öyrəndim ki, Laçında bulaq adıdır və mənası da tez, sürətli axandır) təsviri gözlərimdə canlandı...

Bizi Laçına aparacaq mikroavtobuslar metronun "İnşaatçılar" stansiyasının yaxınlığında dayanmışdılar. 24 may gecə saat 2-də artıq hamı orada idi: Laçından, cənnət Qarabağdan olan-olmayan tanıdığım əksər jurnalistlər, yazıçılar, media təmsilçiləri. Uzaq yolda belə simalarla birgə olmaq lap mükafatdır.

Yolboyu ədəbiyyatdan, mediadan, tarixdən, yaxın-uzaq hadisələrdən danışa-danışa dağlar arxasındakı Laçına gedirik. İki laçınlı da yanımızda. Yurdunu səssiz-səmirsiz sevən Təranə Vahid və onun əksinə dil boğaza qoymadan Laçın haqqında danışan Şərif Ağayar. Sağ olsunlar, bizi yüyrək nağıl dili ilə çoxdan Laçına "çatdırmışdılar".

Yol uzunu dəlisov Həkərinin şırıltısı həyatın qaynadığını göstərən texnikaların uğultusuna qarışdıqca adam elə bilir ki, dünyanın hansısa nəhəng bəstəkarı yeni bir musiqi əsəri yazır. Ana təbiət adlı böyük orkestr onun qoynuna atılanlara qoşulub bizi öz ladına kökləyir.

Laçına çatmışıq artıq. Tədqiqatçı jurnalist Müsəllim Həsənov ani yuxuya getsə də, Şərif bəyin qaltanlı səsi onu yenidən oyadır və son "intiqamı" ağır olur. Açıq pəncərədən sola boylanaraq "Şərif, sənin Həkərin budur?" sualı ilə maşındakıları qəhqəhəyə qərq edir...

Hamı uşaq kimi sevinir, deyib-gülür. Qalib, məmnun bir səs tonuyla ən yaxın tarixi vərəqləyir, hadisələri analiz edirik. Arxadan kimsə "Bu da Laçın dəhlizi" deyib qondarma xuntanın başçılarının həbs olunduqları əraziləri nişan verir. Gözucu maşındakılara baxıram. Hərə başqa bir qürurla parıldayan gözlərini o nöqtəyə zilləyir.

Başqalarını bilmirəm, mən hər dəfə işğaldan azad olunmuş ərazilərə gedəndə ağır və cavabsız suallarla üz-üzə qalıram. Yolboyu rayonları, kəndləri, viran qoyulmuş evləri, izi itmiş cığırları, uçurulmuş məzarlıqları, kötüyü qalmış çinar, palıd, küknar ağaclarını, küskün axan çayları gördükcə bədnam qonşularımızın vəhşiliyinin miqyasından heyrətə gəlirəm...

Çiçəkləyən nar ağaclarına ötəri nəzər salan sürücü "Mən bura 2021-ci ildən gəlib-gedirəm. O vaxtdan elə bil ağaclar tez böyüyüb qol-budaq atır, ildən-ilə daha bar-bəhrəli olurlar. Qəribədir, sanki ağaclar da küsmüşdülər", – deyə gülümsəyir. Bir qədər sonra maşını "Laçın" yazılan lövhənin qənşərində saxlayıb "Bu da Laçın! Buyurun. Bulaq suyu içmək istəsəniz, bir az yuxarı qalxın. Buz kimi suyu var. Amma çox içməyin. Öyrəşməmisiz, soyuqlayarsız" deyir. Onun qayğıkeş xəbərdarlığı Laçında bulaq suyuna təşnə yol yoldaşlarımın heç vecinə də olmadı. Hər kəs ovuclarını kuzə edərək sudan doyunca içdi.

Laçına mənim kimi ilk dəfə gələnlər də, həsrətindən ürəyində qubar olan laçınlılar da eyni ovqatda idi: kövrək, duyğulu. Yazıçı, jurnalist Təranə Vahidin "Atamın ruhuna ehsan..." deyib göz yaşları ilə qurtumladığı bulaq suyu qəhərdən mənim boğazımda düyünləndi. Dolub-boşalan buludlar da elə bil ona qoşulmuşdu. Beləcə, təcrübəsiz qonaqlar yağışa tutulub yaxşıca islandı. Bundan gözəl nə ola bilər?! Ayıldıq. Daha doğrusu, xumarlandığımız Laçın, laçınlı yuxumuzdan xoşbəxt oyandıq...

Yol bizi əvvəl Laçın seyrəngahına apardı. Sonra hamılıqla bizi Laçına qonaq edən səbəb üçün – "Xalça belə yarandı" sərgisinə tamaşaya durduq.

Gün günortanın yerinə gəldikcə adamlar Həkəri sahilində salınan Laçın bulvarına axışırdılar. Geniş çəmənlikdə bakılı-laçınlı xeyli sayda insan vardı. Budur, yağış bir qədər fasilə verir. Buludları "qovan" günəş gözlərimizi qamaşdırır. Həkəri üzərindəki parıltı hamımızı sahilə çəkir.

Çayın üzərindəki körpü iki düşüncə arasında – "bu nağıldır, yoxsa gerçək?"də var-gəl edənləri aramla yırğalayır.

Budur, Azərbaycan Respublikası Prezidentinin Laçın rayonunda xüsusi nümayəndəsi və Bakı Abadlıq Xidmətinin birgə təşkilatçılığı ilə "Xalça belə yarandı" adlı layihə çərçivəsində tədbir başlayır. Bildirilir ki, Laçından 10 yaşında çıxmağa məcbur qalan Azərbaycan Rəssamlar İttifaqının üzvü Elnarə Rəsulovanın ideya müəllifi olduğu eskizlər və xalçalar, həmçinin şəxsi kolleksiyasındakı qədim xalça nümunələri təqdim edilir.

Amma tədbirin əsas ideyası xalça nümayişi yox, onun necə araya-ərsəyə gəlməsinə işarə vurmaq idi. Bu layihədə ecazkar təbiətə malik Laçın torpağında, Həkəri çayının sahilində – çobanın yaylaqda qoyun otarması, qoyunun qırxılması, yunun daranması, əyrilməsi və boyanmasından başlayaraq, xalçanın toxunmasına qədər bütün proses mərhələ-mərhələ təqdim olunurdu.







Tədbir boyu müəllifin eskizləri ilə toxunan xalçalarla yanaşı, biz xalçanın kəsilməsi prosesini da izləmək imkanı qazandıq. "Laçın zirvəsi" adlı xalçanın dəzgahdan kəsimi təntənəli şəkildə qeyd edildi.

Tədbirdə müəllifin digər əsəri, bənzərsiz "Ata vəsiyyəti – oğul zəfəri" adlı xalçasının da təqdimatı oldu. Ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyevin təsvir olunduğu xalçanın əsas özəlliyi onun ikitərəfli toxunmasında idi və buna görə də izləyicilər tərəfindən böyük maraqla qarşılandı.

Qurulan hanalar, yun daraqları, cəhrə, əlçim-əlçim qalaqlanmış didilmiş yunlar, sapların rənglənməsi üçün ocaq üstündəki qazanlar, ipə-sapa yatmayan atları zorla ram edən çaparlar, arxalığını otların üzərinə sərib özünü günə verən çoban hamımızı təbiət adlı böyük xalıya bir "naxışa" çevirməyə çalışdı. Hələ o yanda naz ilə "zümzümə edən" samovarların dəmkeşlərində Laçın kəklikotusu ilə hazırlanan çayın ətrini demirəm. Allah-Allah, bütün bu mənzərə adama astaca "Ölüb qallam burda mən, Torpaq ollam burda mən..." dedirdirdi.

Bəzənmiş meydanda böyük səhnə də qurulmuşdu. İlk olaraq Azərbaycan xanımına məxsus mehribanlıq və qonaqpərvərliklə hər kəsə ayrı bir sevgi göstərən jurnalist Lalə Əliyeva səhnəyə çıxdı. Özünü "Bakı Abadlıq Xidməti İctimaiyyətlə əlaqələr şöbəsinin fəhləsi" kimi təqdim edərək tədbir haqqında hamımıza ətraflı məlumat verdi bu zəhmətkeş müdir xanım.

Qısa zamanda Laçında görülən işlər, ona yenidən can verən Laçın kimi vüqarlı oğul və qızların gördükləri işlərdən də danışdı. Sonra dilli-dilavər, cazibədar və peşəkar aparıcı Rövşanə Ağasəfqızının şaqraq səsi Həkəriyə qoşulub qulaqlarımızda cingildədi. Xalça bəhanəli tədbirdə aşıqların, muğam və estrada ifaçılarının şən nəğmələrində ruhumuz dincəldi.

Tədbirdə fürsət tapıb laçınlı məşhur Yusif dayı ilə də tanış oldum. Hamımızı çətirlərimizin altında gizlədən, arabir kəssə də sonradan öz sevincini belə ifadə edən yağışa meydan oxuyurmuş kimi dik dayanmışdı. 75 yaşını qovuşduğu Laçınında yola salan qəhrəmanımın uca boyuna, şax qamətinə, yaşına inad şuxluğuna tamaşa edib sevinirdim. Onun dağ havasında daha da allanan yanağı, iri, qabarlı əlləri, işıldayan gözləri, az qala dağların əksi hopmuş geniş alnına baxdıqca "Xar olasan, yağı. Bu adamları illərlə necə pərən-pərən saldın öz yurdundan!" sualında nəfəsim təntidi. O, şaqraq səsi ilə dağlardan, dərələrdən, sayını özünün də itirdiyi bulaqlardan, dağlarda bitən fərqli müalicəvi bitkilərdən – kəkotulardan, nanələrdən, yarpızlardan, itburnudan, turşəngdən, çaşırdan... danışdıqca mən "Ya Rəbb, nə yaxşı bu qədər vaxt Laçınsız ürəyi partlamayıb. Dağdan Arana köçdə, Hacıqabulun istisində bağrı çatlamayıb!" deyib ürəyimdə dəfələrlə şükür elədim.

O, deyəsən, özü yaddaşının Laçınsız hissəsini silmişdi: "Mən elə bilirdim ta yaşamaram. Vallah, ölüm haqlamışdı. Amma Laçına gəldim dirildim. Cavanlaşdım e. Daha mənə ölüm yoxdu. Buradakı qoca, cavan insanlara qoşulub mən də gözəl rayonumuzun yeni dövrünü görəcəm. Bura Laçın alınan kimi gəldim və daha getmək fikrim yoxdu. Allah da göstərməsin. Prezidentimiz, dövlətimiz, ordumuz sağ olsun. Laçın biz laçınlıların yox, hər kəsin doğma elidir. Çünki bu torpaqlar uğrunda xeyli qəhrəman oğlumuz şəhid olub".

Hiss elədim, kövrəldi, bir az dayandı. Söhbətin axarını dəyişmək üçün soruşdum:

– Yusif dayı, hamı buranın kəkotusunu mədh edir. Deyə bilərsiniz, Laçın kəkotusunun Naxçıvan, Daşkəsən, Gədəbəydə bitənlərindən fərqi nədir?

Gülümsündü. Əlindəki kəhrəba təsbehi bir az da sürətlə, şıqqıltısı eşidiləcək qədər çevirə-çevirə:

– Bax indi bildim ki, yaxşı çay içənsən. Amma sən arada kəklikotunu ayrıca dəmlə iç. Fərqi biləcəksən. Bizim kəklikotular hamısından fərqlidir. Amma gərək yaxşısını tanıyasan. Əsl kəklikotunu gül açandan sonra yığmalısan. O növü də lap yuxarılarda, əl-ayaq dəyməyən yerlərdədir.

Elə "Ay Yusif dayı, yəqin cavanlıqda dediyiniz əl-ayaq dəyməyən yerlərdə çox gəzmisiniz. Baxmayın, indi yaşınız-başınız imkan verməz" demişdim ki, güllə kimi açıldı. Təsbehini pencəyinin cibinə atıb əlini-əlinə vurub üzünü bayaqdan ona maraqla qulaq asan həmyaşıdına tutub "İndi bu qız mənə "qocalmısan, a Yusif deyir, hə" sualına cavab gözləmədən "Gəl ikimiz də, çox demirəm, eləcə bu təpəyə (uzun qollarını yolun solundakı əraziyə uzadır) çıxaq. 100 metr getsən, o da o yana dursun, məni ötüb keçsən, sənə bir qucaq kəkotu verəcəm" deyib üzümə baxanda güldüm. "Haqlısınız, mən təslim, Yusif dayı" deyərək ona heç 95 yaşında da qalib gəlməyəcəyimi etiraf elədim... Bura Yusif dayıdan sonra gələn dostu Şahin kişi mərcimizi eşidən kimi "A Yusif, çatana kəkotu söz verirsən. Bə maa niyə bir-iki yarpağını qıymırsan?" deyib dostunun gözünün içinə baxdı.

Yusif dayı qımışaraq "Ayə, onlar qonaqdı, sən buralı. Nə gəlib sənə, get yığ da, evin tikilsin" deyib məsələni kökündən həll elədi. Söz meydanını Şahin dayıya verdi. Laçına 10 ay əvvəl qayıdan həmsöhbətimdən gələndən həyatında nəyin dəyişdiyini xəbər aldım. O, titrək səsi ilə bircə kəlmə dedi: həyatım...

Başımız söhbətə elə qarışmışdı ki, bir də oynaq rəqs sədasına ayıldıq. Meydan şux rəqs edən insanlarla dolub-daşırdı. Hərə də, məncə, öz havasına – sevincinin ritminə uyğun oynayırdı. Mən də təzə dostlarım olan köhnə kişilərlə onlara qoşuldum. Yorulub əldən düşənədək rəqs elədik.

O an könlümdən kaş zaman dursun, Bakıya qayıtmayım. Bu sıldırım qayaların üzərində qartal kimi yuva salan Laçına, laçınlılara qoşulub burada qalım. Amma zaman bizi geriyə – Ana vətənin ürəyi Bakıya səsləyirdi.

Yolüstü dostumuz Amil Amalın yuvasına çevrilən "Hoçazfilm" yaradıcılıq studiyasının çəkiliş pavilyonuna da uğradıq.

Bu vəsilə ilə qatı dumana təslim olmuş, axşam düşdükcə bir başqa əzəmətə bürünmüş Laçının dolanbac yallarında zamanla yarışaraq şəhərin ən hündür yerlərini də göz yaddaşıma köçürdüm. A.Amal "Hoçazfilm" haqqında sevgi ilə danışır, planlarını, böyük kino arzularını dilə gətirirdi. Onu dinlədikcə özlüyündə ana təbiətin möhtəşəm pavilyonu olan Laçında bircə daşı belə daş üstə qoyub, bir susamış ağaca da su verən hər kəsə Amilin simasında təşəkkür edib bu təbiət təntənəsi ilə yenidən görüşmək, özü də ən qısa zamanda görüşmək ümidi ilə sağollaşdıq...

**Həmidə Nizamiqızı**

## Foto-yaddaş

Fotolar tarixin vizual yaddaşıdır. Fotoqrafiyanın kəşf olunmasından təxminən bir əsr yarım vaxt keçib. Amma audiovizual texniki yeniliklərin bir-birini sürətlə əvəzlədiyi çağdaş zamanda köhnə ağ-qara fotolara baxanda bəzən bizə elə gəlir ki, bu sənətin neçə yüzilliklər yaşı var. Fotolarda insan ömürlərinin anları ilə yanaşı, ölkənin, xalqın ictimai-siyasi, iqtisadi, mədəni həyatının bir anlıq "donan" səhifələri də tarixə köçür. "Foto-yaddaş" rubrikasında mədəniyyət tariximizin ağ-qara şəkilli səhifələrini ara-sıra vərəqləyəcəyik.

# Moskvada Üzeyir Hacıbəylinin 100 illik yubileyinə hazırlıq

***

1985-ci ildə Azərbaycanın klassik musiqi və milli bəstəkarlıq sənətinin banisi Üzeyir Hacıbəylinin 100 illik yubileyi tərkibində olduğumuz SSRİ miqyasında geniş şəkildə qeyd edildi.

Moskva şəhərində Üzeyir Hacıbəylinin anadan olmasının 100 illiyinə həsr olunmuş təntənəli gecəyə hazırlıqla bağlı komissiyanın növbəti iclası (1985).



Sağdan sola: Tixon Xrennikov – SSRİ Bəstəkarlar İttifaqının sədri (komissiyanın sədri); Zakir Bağırov – Azərbaycan SSR mədəniyyət naziri; Vəfa Quluzadə – Azərbaycan KP MK-nın Mədəniyyət şöbəsinin müdiri; Aqşin Əlizadə – Azərbaycan Bəstəkarlar İttifaqının birinci katibi; Tofiq Quliyev – bəstəkar, Azərbaycan SSR Xalq artisti.

*Azərbaycan Respublikası Kino Foto Sənədləri Arxivi (inventar N 191526).*

# "Sənətkarın dostu" – MEMİM-in yeni layihəsi

Mədəniyyət Nazirliyi Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin (MEMİM) təşkilatçılığı, Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin dəstəyi ilə "Sənətkarın dostu" layihəsi həyata keçirilir.

Yeni layihə mədəniyyətin təşviqi, mədəni gündəlik həyat tərzinin formalaşması, uşaq və gənclərin yaradıcılığının stimullaşdırılması, görkəmli mədəniyyət xadimləri ilə gənclərin zəngin təcrübə mübadiləsinin təşkili məqsədi daşıyır.

Layihənin iyunun 1-də Üzeyir Hacıbəylinin Ev-Muzeyində keçirilən ilk görüşünün qonağı tanınmış pianoçu, Xalq artisti, professor Ülviyyə Hacıbəyova olub. Tədbir Beynəlxalq Uşaqları Müdafiə Gününə həsr olunub.





Ü.Hacıbəyova keçdiyi sənət yolundan söz açıb, hər bir yaradıcı insanın həyatındakı uğurun, gərgin əmək bahasına qazanıldığını qeyd edib. O, peşəkar Azərbaycan musiqisinin inkişafı, Hacıbəylilər nəslinin Azərbaycan musiqi mədəniyyəti tarixində rolu barədə danışıb.

Görüş zamanı uşaq musiqi məktəblərinin pianoçu şagirdləri tərəfindən Ü.Hacıbəylinin "Cəngi", P.Morisin "Marş", "Vals", Q.Qarayevin "İnsan məskən salır" filminə yazdığı musiqi səsləndirilib.

Uşaqlar üçün muzeyə maraqlı ekskursiya təşkil olunub və onlara bayram hədiyyələri verilib.

"Sənətkarın dostu" layihəsi çərçivəsində mədəniyyətin müxtəlif sahələri üzrə incəsənət xadimlərinin iştirakı ilə paytaxtda və regionlarda maarifləndirici, musiqili və interaktiv görüşlərin təşkili nəzərdə tutulur.

## Şuşada beynəlxalq uşaq yaradıcılıq festivalı

İyunun 1-də Şuşa şəhərində Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə "Şuşa türk dövlətləri birliyinin mədəniyyət incisidir" adlı beynəlxalq uşaq yaradıcılıq festivalı keçirilib.

Türkdilli xalqların birliyini əks etdirən festivalda Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Macarıstandan 250-yə yaxın məktəbli ölkələrinin musiqi və rəqs mədəniyyətini təqdim edib.

Tanınmış mədəniyyət və incəsənət xadimləri, şəhid övladları festivalın tamaşaçıları arasında olub.

Beynəlxalq yaradıcılıq festivalının təşkilində məqsəd türkdilli dövlətlərdən olan uşaqlar arasında dostluq münasibətlərini möhkəmləndirmək, uşaqlara öz ölkələrinin tarix və mədəniyyətini layiqincə təmsil etmək üçün şərait yaratmaq, eləcə də Şuşa şəhərinin füsunkar gözəlliyini tanıtmaqdır.

## Bakıdakı Rus Evində "Rəngin sehri"

Bakıdakı Rus Evində "Rəngin sehri" adlı sərginin açılışı olub və Beynəlxalq Uşaqları Müdafiə Gününə həsr olunmuş bayram konserti keçirilib. Tədbir Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası (BMA) ilə birgə təşkil olunub.

İyunun 2-dək davam edən sərgidə Səbinə Ağasiyevanın rəhbərliyi ilə "SabinArt" rəssamlıq məktəbi şagirdlərinin əl işləri nümayiş olunub. Tədbirin açılışında Bakıdakı Rus Evinin rəhbəri İrek Zinnurov uşaqları, eləcə də onların valideynlərini və müəllimlərini təbrik edib.

Sərginin ziyarətçiləri üçün konsert proqramı təqdim olunub. Vokal və instrumental əsərlər BMA-nın məzunları Aminat Əhmədova və Nərgiz Məmmədova, həmçinin 21 və 36 nömrəli musiqi məktəblərinin şagirdləri Xanım Kərimli, Leyla Məhərrəmli, Aysu Sadıqzadə və Məryəm Əliyevanın ifasında səsləndirilib.

Tədbirin kuratoru BMA-nın baş müəllimi sənətşünaslıq üzrə fəlsəfə doktoru Alyona İnyakina olub.

## "Sülh göyərçinləri"

### Uşaq Filarmoniyasının konserti

Mayın 31-də Dövlət Uşaq Filarmoniyası Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrının səhnəsində "Sülh göyərçinləri" adlı konsert proqramı ilə çıxış edib.



Konsert 1 iyun – Beynəlxalq Uşaqları Müdafiə Günü münasibətilə təşkil olunub.

Proqramda Dövlət Uşaq Filarmoniyasının qız və oğlanlardan ibarət rəqs ansamblı, "Şəms" uşaq xoru, "Güləbətin" vokal ansamblı, "Musiqili uşaq teatrı" maraqlı nömrələri ilə balaca dostlarının bayramını təbrik edib. Rəngarəng səhnə geyimləri, maraqlı çıxışlar bir-biri ilə əsl harmoniya təşkil edib.

Konsertin sonunda "Qoruyaq uşaqları" mahnısı ilə bütün iştirakçılar səhnəyə çıxıblar.

## Teatr Muzeyində "Uşaqların sevinci"

1 iyun – Beynəlxalq Uşaqları Müdafiə Günü münasibətilə Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində "Uşaqların sevinci" adlı tədbir təşkil olunub.



Tədbir muzeyin və Abşeron-Xızı Regional Mədəniyyət İdarəsi Abşeron rayon Xırdalan şəhər onbirillik Musiqi məktəbinin birgə təşkilatçılığı ilə keçirilib. Muzeyin elmi-kütləvi işlər şöbəsinin müdiri Ümidə Hacıyeva uşaqları bayram münasibətilə təbrik edib və onlara bu əlamətdar günlə bağlı məlumat verib.

Tədbirin bədii hissəsində Xırdalan şəhər Musiqi məktəbinin şagirdləri bəstəkar, pedaqoq Sevinc İbrahimovanın müxtəlif mövzulu uşaq mahnılarından ibarət musiqili kompozisiya ilə çıxış ediblər.

# Teatra getmək məktəbliyə nə verə bilər?

### Mövzuya bir daha qayıdırıq...

"Ədəbiyyat dərsləri və teatrların repertuarı" mövzusunu (bu mövzuda ilk yazımız "Mədəniyyət" qəzetinin 17 aprel 2024-cü il tarixli sayında dərc olunub – S.B.) davam etdirərək məsələyə məktəbli-teatr prizmasından daha yaxından baxaq. Ədəbiyyat dərslərini yeniyetmələr üçün əhəmiyyətli məşğuliyyətə çevirmək, onlarda ciddi mütaliəyə maraq yaratmaq istiqamətində artıq çox illərdir ki, mübahisə və müzakirələr aparılır. Bu baxımdan dram əsərlərinin şagirdlər tərəfindən mənimsənilməsində teatrın rolu xüsusi önəm kəsb edir.

Müasir dövrdə məktəbin əsasını təşkil edən tədris-tərbiyə sistemi şagirdlərdə fəal həyat mövqeyi, prinsipiallıq, mənəvi maraqların və tələbatların hərtərəfliliyi kimi keyfiyyətlərə köklənir. Mədəniyyətin, incəsənətin nailiyyətləri gənclər tərəfindən müəyyən hazırlıq səviyyəsi ilə təmin edilən və sənət əsərlərinin müəllifləri ilə oxucular (tamaşaçılar) arasında dialoq imkanı yaradan dərinlik və maraqla qavranmalıdır.

Şagirdlərin incəsənətə marağını artırmaq işində ədəbiyyat dərsləri az əhəmiyyət kəsb etmir. Çünki ədəbiyyat dərslərinin müvəffəqiyyətinin əsas şərtlərindən biri incəsənətin digər növlərinə müraciəti nəzərdə tutur. Bəs şagirdlər tərəfindən dram əsərlərinin qavranılmasındakı çətinlikləri necə aradan qaldırmaq olar, bundan ötrü hansı şərait yaradılmalıdır? Bu istiqamətdə ən effektiv şərait ədəbiyyat dərsləri ilə sıx bağlı olan məktəb dram özfəaliyyətinin təşkili, məktəblilərin dərs prosesində dram əsərlərini dərk edərək oxumasına və təhlilinə hazırlanması, dram əsərinin spesifik bədii keyfiyyətlərini nəzərə alaraq onun analizi, ədəbi təhsilin vəzifələrini və məktəblilərin inkişafına uyğun olaraq peşəkar teatra müraciətlə təmin etmək olar. Məqsədyönlü yanaşmalara kiçik ibrətamiz epizodların müstəqil şəkildə səhnələşdirilməsi, dramaturji epizodun öyrədici analizi, ədəbiyyat dərslərində bu əsərlərin ucadan oxusunu aid etmək olar.



İlkin gənclik dövrünü yaşayanlar üçün teatr vacib məkan və anlayışdır. Teatrın təsiri altında hər hansı gəncin qəlbində onun mənəvi, estetik və intellektual dünyasını zənginləşdirən və formalaşdıran parlaq duyğular oyana bilər. Səhnə obrazı təcrübəsiz tamaşaçıya bədii sözün sehrli məziyyətlərini göstərir: gənclərdə bədii təcrübə keyfiyyəti formalaşdırır, bunsuz isə bədii ədəbiyyatın mütaliəsi, incəsənətin qavranılması mümkünsüzdür.

Şagirdlər qarşısında klassikanın səhifələrini açmalı, onlarda keçmiş dövrlərə aid ideya və obrazlara maraq yaratmalı, ötən əsrlərin yaradıcı insanları ilə müasir zaman arasında canlı əlaqə qurmalı olduğumuz vaxt gəlib çatanda teatrın rolu xüsusən aydın hiss olunur.

Məsələn, Yuğ Dövlət Teatrının uzun müddət repertuarında olan "Naməlum Axundzadə" tamaşasının hazırlanmasında Mirzə Fətəlinin komediyalarından və nəsr əsərlərindən istifadə edilib. Teatrın repertuarındakı "Şəbədə" tamaşası isə görkəmli ədibin ən az tamaşaya qoyulmuş pyesi – "Mürafiə vəkillərinin hekayəti" əsasında hazırlanıb. "Mürafiə vəkillərinin hekayəti"nə rejissorlar tərəfindən daha az müraciət edilməsini bəzi teatr tənqidçiləri dramaturji materialın dilinin ədibin digər pyeslərinə nisbətən qəliz olması və bu əsərdə ərəb-fars mənşəli sözlərin çox olması ilə izah edirlər. Lakin Yuğ teatrının "Şəbədə"si tamaşaçılar, o cümlədən məktəblilər tərəfindən çox anlaşıqlı və rahat qavranılır. Deməli, orta məktəbdə ədəbiyyat dərsliklərindən M.F.Axundzadə irsi ilə tanış olan şagirdlər üçün də bu tamaşalar faydalı və maraqlı ola bilər. Yuğ teatrının "Mənəm, mən..." mistik-psixoloji janrlı səhnə əsəri Azərbaycan ədəbiyyatının digər görkəmli nümayəndəsi İmadəddin Nəsiminin şair-mütəfəkkir kimi şəxsiyyətinin incəliklərini anlamaqda əhəmiyyətli rol oynayan teatr yozumlarındandır.

Öncəki məqaləmizdə qeyd etmişdik ki, müasir dövrün şagirdləri mütaliəyə, o cümlədən Azərbaycan ədəbiyyatının mütaliəsinə o qədər də həvəsli deyillər. Bu mənada teatr sənəti bədii əsərlərə yeni ruh verərək "klassika və müasirlik" probleminin həllində böyük rol oynaya bilər. Kollektiv hiss, həyəcan və təəssürat yeniyetmə şagirdlərin klassik dramaturgiyanı qavramasında xüsusilə əhəmiyyət kəsb edir.

Mütaliə və ya kollektiv oxu zamanı gənclərdə ilk baxışdan durğun, solğun təəssürat doğuran bir əsər teatr reflektorlarının işığında möhtəşəmliklə, parlaqlıqla və əlvan çalarlarla dolub-daşır, intellektual və emosional assosiasiyalar oyadır, yaddaşa həkk olunur. Tamaşaya kollektiv baxış tədris proqramı üzrə keçilən pyes üzrə təhlili dərinləşdirir, şagirdlərin diqqətini əsərdə yer alan və tamaşada gerçəkləşən səhnə imkanlarına cəlb edir, bütün bunlar isə mütaliə və qavrama vərdişlərini fəallaşdırır, tamaşa ilə pyesin müqayisəsi şagirdlərdə yeni mövzuları işləmək bacarığını açır.

Göründüyü kimi, teatrlarla məktəblər arasında əlaqənin daha sıx və daha məqsədyönlü olmasını şərtləndirən kifayət qədər səbəb var...

**Samirə Behbudqızı**

## Xatirə təqvimi

**3–7 iyun**

### Azərbaycan

**3 iyun 1929** – Pianoçu, musiqişünas-pedaoqoq, Əməkdar müəllim Elmira Mirzəağa qızı Əliyeva (1929–2022) Bakıda doğulub. Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru olub.

**3 iyun 2006** – Xalq artisti, teatr və kino aktyoru Mikayıl Mirzə (Mikayıl Şahvələd oğlu Mirzəyev; 1.1.1947 – 2006) vəfat edib. Akademik Milli Dram Teatrında çalışıb, filmlərdə, televiziya tamaşalarında yaddaqalan obrazlar yaradıb.

**3 iyun 2006** – Xalq artisti, tanınmış vokal ifaçısı, aktyor Mobil Salman oğlu Əhmədov (10.9.1931 – 2006) vəfat edib. 40 ilə yaxın Musiqili Komediya Teatrında çalışıb, tamaşalarda əsas rolları ifa edib.

**4 iyun 1926** – Əməkdar artist, xanəndə Fatma Yusif qızı Mehrəliyeva (1926 – 4.1.2000) Qubada anadan olub. Muğam, xalq və bəstəkar mahnılarının bənzərsiz ifaçısı kimi tanınıb. "Arşın mal alan" filmində (1945) Telli rolunu oynayıb.

**4 iyun 1929** – Əməkdar artist, kamança ifaçısı Elman Kərim oğlu Bədəlov (1929 – 25.6.1991) Ağdamın Malıbəyli kəndində doğulub. Azərbaycan Televiziyası və Radiosu Xalq çalğı alətləri orkestrində fəaliyyət göstərib.

**4 iyun 1939** – Əməkdar artist Vaqif Nəcəf oğlu Rəsulov (1939–2014) Bakıda doğulub. Sumqayıt Dövlət Dram Teatrı yaranandan (1968) bu teatrın aktyoru olub.

**4 iyun 1944** – Əməkdar mədəniyyət işçisi, kinooperator Elman Əliverdi oğlu Əliyev (1944–2016) Bakıda doğulub. 30-dan artıq sənədli filmin operatoru, bədii filmlərin rəssam-fotoqrafı olub.

**5 iyun 1908** – Məşhur şair Mikayıl Müşfiq (Mikayıl Əbdülqadir oğlu İsmayılzadə; 1908 – 6.1.1938) anadan olub. Yeniyetmə vaxtlarından şeir yazıb, 18-20 yaşlarında populyarlıq qazanıb. Qısa ömründə 10 şeir və poemalar toplusu nəşr olunub. Repressiya qurbanıdır.

**5 iyun 1939** – Xalq şairi, dramaturq Vaqif Səmədoğlu (Vaqif Səməd oğlu Vəkilov; 1939 – 28.1.2015) anadan olub. Lirik-fəlsəfi şeirlərin, "Bəxt üzüyü", "Yayda qartopu oyunu", "Generalın son əmri", "Mamoy kişinin yuxuları" və s. pyeslərin müəllifidir. Milli Məclisin deputatı (2000–2010) olub.

**5 iyun 1941** – Görkəmli aktyor, Əməkdar artist Hamlet Bəbir oğlu Xanızadə (1941 – 3.2.1990) Bakının Şağan kəndində doğulub. "Babək", "Arxadan vurulan zərbə", "Qızıl uçurum", "Qətl günü" və s. filmlərdə, Akademik Dram Teatrında, televiziya tamaşalarında yaddaqalan obrazlar yaradıb.

**6 iyun 1917** – Teatr xadimi, rejissor, pedaqoq, Əməkdar incəsənət xadimi Zəfər Əlipaşa oğlu Nemətov (1917 – 19.11.1971) anadan olub. Yaradıcılığının əsas dövrü Gənc Tamaşaçılar Teatrı ilə bağlıdır, 1942–1969-cu illərdə bu teatrda quruluşçu rejissor və baş rejissor işləyib.

**6 iyun 1929** – Əməkdar rəssam, heykəltaraş Münəvvər Məcid qızı Rzayeva (1929–2004) Bakıda anadan olub. Mikayıl Müşfiq (Bakı və Xızı), Ayna Sultanova, Məhsəti Gəncəvi (Gəncə) və digər tanınmış şəxsiyyətlərin heykəllərinin müəllifidir.

**6 iyun 1929** – Akademik, fizika-riyaziyyat elmləri doktoru Çingiz Oveys oğlu Qacar (1929 – 12.6.2021) Bakıda doğulub. İxtisas sahəsi ilə yanaşı, "Qədim və orta əsrlər Azərbaycanın görkəmli şəxsiyyətləri", "Köhnə Bakı", "Köhnə Şuşa" və s. kitabların müəllifidir.

**7 iyun 1893** – Peşəkar təhsil almış ilk azərbaycanlı qadın rəssamlardan Qeysər Seyfulla qızı Kaşıyeva (1893 – 17.4.1972) Tiflisdə doğulub. Qafqaz İncəsənətini Təşviq Cəmiyyətinin rəssamlıq sinfində oxuyub. Portret və peyzajların ("Azərbaycan ziyalısı", "Göl sahili" və s.) müəllifidir. "Şərq qadını" jurnalında rəssam işləyib.

**7 iyun 1924** – Xalq artisti Məlik Yusif oğlu Dadaşov (1924 – 3.12.1996) Bakıda anadan olub. Akademik Milli Dram Teatrında çalışıb. Rus Dram Teatrında direktor və bədii rəhbər işləyib. Teatr və televiziya tamaşalarında, filmlərdə ("Axırıncı aşırım", "O dünyadan salam", "Fəryad" və s.) yaddaqalan rollar oynayıb.

### Dünya

**3 iyun 1875** – Fransız bəstəkarı Jorj Bize (Georges Bizet - Alexandre-Cesar-Leopold Bizet; 25.10.1838 – 1875) vəfat edib. Operaları: "Karmen", "Camile", "Mərcan axtaranlar" və s.

**3 iyun 1924** – Yəhudi əsilli çex-alman yazıçısı, filosof Frans Kafka (Franz Kafka; 3.7.1883 – 1924) vəfat edib. Əsərləri: "Bir xanımın xülasəsi", "İtaətkarla söhbət", "Çevrilmə", "Qəsr", "Kənd həkimi" və s.

**3 iyun 1963** – Türk şairi, yazıçı-dramaturq Nazim Hikmət (15.1.1902 – 1963) Moskvada vəfat edib. Siyasi baxışlarına görə 1951-ci ildə SSRİ-yə mühacirət etmişdi. Əsərləri əsasında "Yaşamaq gözəldir, qardaşım", "Bir məhəllədən iki nəfər" ("Azərbaycanfilm"), "Məhəbbətim mənim, kədərim mənim" (SSRİ-Türkiyə) filmləri çəkilib.

**4 iyun 1882** – Rus teatr rejissoru Fyodor Komissarjevski (1882–1954) anadan olub.

**5 iyun 1898** – İspan şairi və dramaturqu, musiqiçi və rəssam Federiko Qarsia Lorka (Federico Garcia Lorca; 1898–1936) anadan olub. İspaniyada vətəndaş müharibəsində həlak olub.

**5 iyun 1931** – Fransız kinorejissoru, "Yeni dalğa"nın nümayəndəsi Jak Demi (Jacques Demy; 1931–1990) anadan olub.

**6 iyun 1599** – İspan rəssamı Dieqo Rodriqes de Silva Velaskes (Diego Rodriguez de Silva y Velazquez; 1599–1660) anadan olub.

**6 iyun 1606** – Fransız dramaturqu Pyer Kornel (Pierre Corneille; 1606–1684) anadan olub. Əsərləri: "Sid", "Edip", "Psixeya", "Medeya" və s.

**6 iyun 1799** – Böyük rus şairi, dramaturq və nasir Aleksandr Sergeyeviç Puşkin (1799 – 10.02.1837) anadan olub. Əsərləri: "Yevgeni Onegin" (mənzum roman), "Ruslan və Lyudmila", "Qafqaz əsiri", "Tunc atlı" (poema), "Boris Qodunov", "Motsart və Salyeri" (pyes), "Kapitan qızı", "Qaratoxmaq qadın" (povest) və s.

**6 iyun 1875** – Alman yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1929) Tomas Mann (Paul Thomas Mann; 1875 – 12.08.1955) anadan olub. Əsərləri: "İosif və onun qardaşları" (tetralogiya), "Buddenbroklar", "Doktor Faustus" (roman) və s.

**7 iyun 1848** – Fransız impressionist rəssamı, qrafik və heykəltaraş Pol Qogen (Eugene Henri Paul Gauguin; 1848–1903) anadan olub.

**7 iyun 1917** – İtalyan əsilli Amerika aktyoru və müğənnisi Din Martin (Dean Martin – Dino Paul Crocetti; 1917–1995) anadan olub.

**Hazırladı: V.Orxan**

# İtaliyada tanınmış azərbaycanlı xoreoqrafın yaradıcılıq gecəsi

## Mais Nuriyev tələbələrinin əhatəsində

İtaliyada fəaliyyət göstərən "Azəri" Azərbaycan Mədəniyyət Assosiasiyasının sədri, tanınmış xoreoqraf, Milan Konservatoriyasının professoru Mais Nuriyevin yaradıcılığına həsr olunmuş tədbir keçirilib.

"Cinema Teatro Manzoni"də keçirilən gecədə Busto-Qarolfon şəhərinin (Milan əyaləti) meri Sindako Suzanna Biondi, Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşları, Azərbaycan icmasının üzvləri, yerli ictimaiyyət və mədəniyyət nümayəndələri iştirak ediblər.

Dövlət Komitəsindən bildirilib ki, tədbir çərçivəsində Mais Nuriyevin italyan tələbələrdən ibarət rəqs qrupunun Azərbaycan musiqisini ifa etmələri böyük maraqla qarşılanıb. Xoreoqrafın müxtəlif ölkələrdə yaşayan tələbələri noyabr ayından etibarən ustadlarının yaradıcılıq gecəsinə hazırlaşıblar.

Mer Sindako Suzanna Biondi tədbir iştirakçılarını salamlayıb və məşhur xoreoqraf Mais Nuriyevə öz ürək sözlərini çatdırıb.



Milan Opera Teatrının keçmiş bədii rəhbəri Cüzeppe Karboni də Mais Nuriyevi təbrik edərək, öz xoş arzularını bildirib.

Mais Nuriyevə həsr olunmuş "Azərbaycan! Qardaşım, sağ ol!" əsərini müəllifin özü – Milan Konservatoriyasının keçmiş professoru David Qualtierinin ifa etməsi alqışlarla qarşılanıb.

Çıxışlarda dəfələrlə beynəlxalq müsabiqələrdə münsif olan Mais Nuriyevin Avropada Azərbaycan mədəniyyətini uğurla təmsil etməsi, müxtəlif xalqların rəqslərini səhnələşdirməsi barədə danışılıb, onun yaradıcılıq nümunələri nümayiş olunub.

Mais Nuriyevin yaradıcılığına həsr olunmuş film göstərilib.

Tələbələri sonda Mais Nuriyevi səhnəyə dəvət edib, sürəkli alqışlarla ona öz təbriklərini çatdırıblar.

Qeyd edək ki, Azərbaycan xalq rəqslərinin beynəlxalq aləmdə təbliği, İtaliyada diaspor fəaliyyətinin daha da genişləndirilməsi istiqamətində çox əhəmiyyətli işlər görmüş Mais Nuriyev "Əməkdar artist" fəxri adına və "Heydər Əliyevin 100 illiyi (1923–2023)" yubiley medalına layiq görülüb. Ustad xoreoqraf bu il San-Remo Beynəlxalq Rəqs Müsabiqəsinin münsiflər heyətində də yer alıb.

# Xivədə İƏT ölkələrinin turizm konfransı

## Azərbaycan sədrliyi Özbəkistana təhvil verib



31 may – 2 iyun tarixlərində Özbəkistanın Xivə şəhərində İslam Əməkdaşlıq Təşkilatı (İƏT) çərçivəsində "Davamlı və dayanıqlı turizm sənayesinin inkişafı" mövzusunda Turizm Nazirlərinin 12-ci konfransı keçirilib. İclasda Azərbaycanı Dövlət Turizm Agentliyinin (DTA) nümayəndə heyəti təmsil edib.

Konfrans çərçivəsində İƏT-ə üzv ölkələrin Yüksəkvəzifəli şəxslərinin iclası olub. Azərbaycan Nazirlər Konfransında sədrliyi Özbəkistana təhvil verib.

Konfransda çıxış edən DTA sədrinin müşaviri Kənan Quluzadə bu ilin ilk 4 ayı ərzində Azərbaycana gələnlərin 43 faizinin İƏT dövlətlərinin vətəndaşları olduğunu diqqətə çatdırıb. Təşkilat çərçivəsində turizm sahəsində əlaqələrin genişləndiyini qeyd edən K.Quluzadə ölkəmizdə bu sahənin inkişafına xüsusi diqqət ayrıldığını vurğulayıb, işğaldan azad edilmiş ərazilərdə dövlət tərəfindən turizmin, İslam irsinin bərpası üçün mühüm addımlar atıldığını deyib.

Tədbir iştirakçılarına bu ilin noyabr ayında Azərbaycanın ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişikliyi Konfransı (COP29) barədə də məlumat verilib, onun turizmə təsir və töhfələri baxımından da vacibliyinə diqqət çəkilib.

Konfransda 2025-ci il üçün Seneqalın Dakar, 2026-cı il üçün Misirin Qahirə və 2027-ci il üçün isə Pakistanın Lahor şəhərləri "İslam dünyasının turizm paytaxtları" seçilib.

# Torpağın altındakı tarix

Türkiyənin Antalya vilayətindəki Aspendos qədim şəhərinin qalıqları üzərində aparılan araşdırmalar zamanı Roma dövrünə aid, təxminən iki min il yaşı olan Zevs və Afrodita heykəlləri tapılıb.

Arxeoloji araşdırmalar Türkiyənin Mədəniyyət və Turizm Nazirliyi tərəfindən həyata keçirilən "Gələcəyə miras" layihəsi çərçivəsində aparılır.

Qeyd edək ki, günümüzədək gəlib çatan nadir qədim teatr binası və su kəmərlərindən birinə sahib bu antik şəhər yerində 2008-ci ildə başlayan səthi araşdırmalar 2022-ci ildən Afyon Kocatepe Universitetinin mütəxəssisləri tərəfindən davam etdirilir.

Türkiyənin yerləşdiyi coğrafiyanın nə qədər zəngin maddi-mədəni irsə malik olduğunu təkcə xüsusi arxeoloji ekspedisiyalar təsdiq etmir. Həyata keçirilən iri infrastruktur layihələri də torpağın altındakı tarixi üzə çıxarır.





Azərbaycan təbii qazını Türkiyə və Avropa istehlakçılarına çatdıran Trans-Anadolu Qaz Boru Kəmərinin (TANAP) inşası zamanı bir çox tarixi əsər aşkarlanıb. Boru xəttinin inşa edildiyi beş il ərzində aşkarlanaraq Türkiyənin mədəni irs inventarına daxil edilən minə yaxın əsər 2020-ci ildən etibarən ölkənin muzeylərində sərgilənir. Həmçinin çöl tədqiqatları nəticəsində əvvəllər qeydə alınmayan 106 yeni ərazi aşkarlanaraq Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan müvafiq regional qurumlarının mühafizəsi altına alınıb.

# Ölkəmiz Braziliyada mədəniyyət satış-sərgisində təmsil olunub

Bu il ölkəmiz ilk dəfə Braziliyanın paytaxtında keçirilən Beynəlxalq milli mətbəx və mədəniyyət satış-sərgisində təmsil olunub.




Azərbaycanın Braziliyadakı Səfirliyindən bildirilib ki, diplomatik missiya rəhbərlərinin həyat yoldaşları qrupu və Braziliya Federal Dairəsinin (paytaxt Braziliya şəhəri və ətraf ərazilər) hakimiyyəti tərəfindən ənənəvi olaraq təşkil edilən budəfəki sərgidə 70-dən artıq ölkə təmsil olunub.

Braziliya şəhərinin İncəsənət Muzeyində keçirilən sərgini hər il minlərlə insan ziyarət edir.

Səfirliyimizin təşkilatçılığı ilə qurulan stenddə Azərbaycanda istehsal olunmuş qida məhsulları, çaylar, kosmetik vasitələr, eləcə də milli yeməklər və səfirliyin əməkdaşları tərəfindən xüsusi hazırlanmış suvenirlər təqdim edilib. Uşaqlar tərəfindən sərginin mədəniyyət proqramı çərçivəsində "Nəlbəki" rəqsi ifa olunub.

Stendimiz ziyarətçilər tərəfindən böyük maraqla qarşılanıb, onlar burada xeyli alış-veriş ediblər.

Satış-sərgidən əldə edilən gəlirin bu il ölkənin Rio Qrande do Sul ştatında baş vermiş təbii fəlakətdən zərər çəkmiş yerli əhaliyə yardım üçün yönəldilməsi nəzərdə tutulub.

# Gənc rejissorun filmi Türkiyədə mükafat qazanıb

Gənc rejissor Elvin Adıgözəlin ssenari müəllifi və rejissoru olduğu "Bağışla məni bu gecə" qısametrajlı bədii filmi Sivas Beynəlxalq Film Festivalında (Türkiyə) "Ən yaxşı film" kateqoriyasında mükafat qazanıb.

Ziya Ağa, Aydan Həsənova, Kamran Ağabalayev, İlqarə Tosovanın çəkildiyi filmin prodüseri Maria Yatskovadır.

Ekran işi ət fabrikində işləyən Fuadın aliment ödəməmək üçün keçmiş həyat yoldaşı ilə barışmaq istəyindən bəhs edir. Mənəvi-sosial problemləri maddi maraqlar fonunda ortaya qoyan film müasir insanın ümumi problemlərini konkret qəhrəmanların simasında təqdimata cəhdedir.

Mükafat festivalda iştirak edən aktrisa İlqarə Tosovaya təqdim edilib.

# Meksika tarixində ilk – qadın prezident

Meksikada iyunun 2-də keçirilən prezident seçkilərində hakim Milli Yenidənqurma Hərəkatının lideri Klaudiya Şeynbaum qalib gəlib. İqtidaryönlü "Tarixi birlikdə yazaq" koalisiyasının namizədi Meksikanın 200 illik müstəqilliyi dövründə ali dövlət postuna seçilən ilk qadın olub.

Ətraf mühit və energetika üzrə alim olan K.Şeynbaum 2018–2023-cü illərdə Mexiko şəhərinin meri olub. O həmçinin iqlim dəyişikliyi üzrə Hökumətlərarası ekspert qrupunun üzvü kimi 2007-ci ildə Nobel sülh mükafatının kollektiv laureatlarından biridir.

Onu da qeyd edək ki, 62 yaşlı K.Şeynbaum yəhudi əsillidir. Ata tərəfdən qohumları 1920-ci illərdə Litvadan, ana tərəfdən qohumları isə 30-cu illərdə Bolqarıstandan Meksikaya mühacirət ediblər.

# Ayın görünməyən tərəfində nə var?

Çinin "Çanye-6" avtomatik enib-qalxma modulu iyunun 4-də Ayın səthindən topladığı süxur nümunələri ilə birlikdə Yerə doğru hərəkətə başlayıb.



Çin Dövlət Kosmos Administrasiyasının (CNSA) məlumatına görə, bu, bəşəriyyət tarixində Ayın görünməyən tərəfindən ilk süxur toplama missiyasıdır.

Qeyd edək ki, Çinin Ayın görünməyən tərəfindən süxur toplayıb gətirmək üçün başladığı "Çanye-6" missiyasına mayın 3-də start verilib. CNSA missiyanın təxminən 53 gün davam edəcəyini planlaşdırıb. Enib-qalxma modulu iyunun 2-də Ayın Cənub qütbü – Eytken hövzəsinə enib. Bu, Ayın səthində, ümumilikdə Günəş sistemində krater zərbəsi nəticəsində yaranmış ən qədim, ən böyük və ən dərin hövzədir. Həmin ərazidən götürülən nümunələr Ay haqqında yeni məlumat əldə etməyə imkan verəcək.

Bundan öncə Çinin "Çanye-5" kosmik aparatı 2020-ci ildə Ayın Yerdən görünən tərəfindən nümunələr gətirib.

Xronoqraf

# Tarixdə bu gün

## Olaylar, faktlar (4 – 7 iyun)



### 360 il əvvəl...



**6 iyun 1664-cü ildə** Britaniya ilə Niderland arasında Amerikadakı müstəmləkələrə nəzarət uğrunda müharibə başlayıb. İlk döyüşdə qalib gələn ingilislər Nyu-Amsterdam şəhərini ələ keçiriblər və onun adını dəyişərək Nyu-York qoyublar.

### 146 il əvvəl...

**4 iyun 1878-ci ildə** Britaniya və Osmanlı imperiyası arasında Kipr konvensiyası imzalanıb. Osmanlı Kipr adasını Britaniyanın idarəçiliyinə verərək əvəzində Rusiya ilə Balkan müharibəsində (1877–1878) ondan yardım almalı idi. Lakin Osmanlı müharibədə məğlub oldu və Balkanların böyük hissəsinə də, Kiprə də nəzarəti itirdi.

### 119 il əvvəl...

**7 iyun 1905-ci ildə** Norveç-İsveç uniyasına (ittifaq) son qoyulub. Norveç parlamenti (Stortinq) ölkədə keçirilmiş referendumun nəticələrini nəzərə alaraq yüz ilə yaxın qüvvədə olan ittifaq sazişini pozmaq barədə qərar çıxarıb. Norveç müstəqil krallıq olub. İsveç 1814-cü ildə Norveçlə müharibədə qalib gələrək onu özü ilə ittifaqa məcbur etmişdi.

### 106 il əvvəl...

**4 iyun 1918-ci ildə** Batumda Azərbaycan Xalq Cümhuriyyəti ilə Osmanlı arasında "Sülh və dostluq haqqında" müqavilə imzalanıb. Müqaviləni Azərbaycan tərəfdən Milli Şuranın sədri M.Ə.Rəsulzadə və xarici işlər naziri M.Hacınski, Osmanlı tərəfdən ədliyyə naziri Xəlil bəy imzalamışdı. Bu müqavilə ilə Xalq Cümhuriyyəti birinci olaraq Osmanlı tərəfindən tanındı.

### 104 il əvvəl...

**6 iyun 1920-ci ildə** Zaqatalada sovet hakimiyyətinə qarşı üsyan başlanıb. Molla Hafiz Əfəndinin başçılıq etdiyi üsyançılar Zaqatala qalasını, Qaxı və ətraf əraziləri ələ keçiriblər. Rusiyanın XI ordusunun bölgəyə yeridilən hissələri iyunun 16-da üsyanı yatırıb. Hafiz Əfəndi dəstəsi ilə Gürcüstan ərazisinə keçib.

### 57 il əvvəl...

**5 iyun 1967-ci ildə** Yaxın Şərqdə "Altıgünlük müharibə" başlanıb. İsrail ordusu Misir, Suriya, İordaniya və İraqın birləşmiş qüvvələrini qısa müddətdə (10 iyun) məğlub edib, Misirin Sinay yarımadasını, Suriyanın Qolan təpələrini ələ keçirib. Misir hökuməti ABŞ və Britaniyanın İsraili dəstəkləməsinə etiraz olaraq Süveyş kanalını bağlayıb. Dünya gəmiçiliyi üçün böyük əhəmiyyət daşıyan kanal yalnız 1975-ci ildə açıldı. 1979–1980-ci illərdə Misirlə aparılan Kemp-Devid (ABŞ) danışıqları nəticəsində İsrail Sinayı tərk etdi.

### 52 il əvvəl...



**5 iyun 1972-ci ildə** Stokholmda (İsveç) ətraf mühitin mühafizəsi üzrə beynəlxalq konfrans başlayıb. Həmin il dekabrın 16-da BMT Baş Assambleyasının 27-ci sessiyasında 5 iyun – Dünya Ətraf Mühit Günü (World Environment Day) kimi təsis olunub.

### 31 il əvvəl...

**4 iyun 1993-cü ildə** Gəncədə Azərbaycan Ordusunun keçmiş korpus komandiri Surət Hüseynovun başçılıq etdiyi hərbi qüvvələr qiyam qaldırıb. Qiyamçılarla hökumət qüvvələri arasında silahlı toqquşmada hər iki tərəfdən 30-dan çox insan həlak olub. Bu hadisə Azərbaycanda hərbi-siyasi böhranı dərinləşdirib, ölkə vətəndaş müharibəsi astanasına gəlib.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır
**Baş redaktor:** Vüqar Əliyev
**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D Dövlət Film Fondu, 5-ci mərtəbə
**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya № AB 022279. İndeks:** 0187. **Qiyməti:** 60 qəpik
"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 1270
**Buraxılışa məsul:** Fariz Yunisli
Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.
**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944
MƏDƏNİYYƏT QƏZETİ REDAKSİYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641